# “PRİOR KREDİT
# BANK OLMAYAN KREDİT TƏŞKİLATI”
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

## “PRİOR KREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**MÜNDƏRİCAT**

**Səhifə**

31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI .......... 1

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ .......... 2-3

31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI:

- Maliyyə vəziyyəti haqqında hesabat .......... 4
- Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat .......... 5
- Kapitalda dəyişikliklər haqqında hesabat .......... 6
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat .......... 7-8
- Maliyyə hesabatları üzrə qeydlər .......... 9-54

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə "Prior Kredit Bank Olmayan Kredit Təşkilatı" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri əks etdirən maliyyə hesabatlarının Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına ("MHBS Mühasibat Uçotu Standartları) uyğun şəkildə hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- MHBS Mühasibat Uçotu Standartlarına riayət olunması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 24 iyun 2025-ci il tarixində Cəmiyyətin İdarə Heyəti tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyətinin adından:**

| | |
|---|---|
| **Kifayət Ağalarova**<br>**Baş direktor** | **Şamil Abdurahmanov**<br>**Baş mühasib** |
| 24 iyun 2025-ci il<br>Bakı, Azərbaycan Respublikası | 24 iyun 2025-ci il<br>Bakı, Azərbaycan Respublikası |

bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Prior Kredit Bank Olmayan Kredit Təşkilatı" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarı, Müşahidə Şurası və Rəhbərliyinə:

### *Rəy*

Biz "Prior Kredit Bank Olmayan Kredit Təşkilatı" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2024-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə əhəmiyyətli mühasibat uçotu prinsiplərinə dair məlumatların qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına ("MHBS Mühasibat Uçotu Standartları") uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

### *Rəy üçün Əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### *Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İdarəetmə Səlahiyyəti Verilmiş Şəxslərin Məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

bakertilly

İdarəetmə səlahiyyəti verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-in tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyəti verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

# "PRİOR KREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 60,316 | 332,858 |
| Müştərilərə verilmiş kreditlər | 7 | 3,671,228 | 2,846,975 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 8 | 35,138 | 60,332 |
| Təxirə salınmış vergi aktivi | 9 | 68,409 | - |
| Digər aktivlər | 10 | 48,235 | 41,156 |
| **CƏMİ AKTİVLƏR** | | **3,883,326** | **3,281,321** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Borc alınmış vəsaitlər | 11 | 1,347,256 | 986,188 |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | 12 | 77,017 | - |
| İcarə öhdəliyi | 13 | - | 4,024 |
| Digər öhdəliklər | 14 | 113,303 | 62,554 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1,537,576** | **1,052,766** |
| **KAPİTAL** | | | |
| Ödənilmiş kapital | 15 | 2,100,000 | 2,100,000 |
| Bölüşdürülməmiş mənfəət | | 245,750 | 128,555 |
| **CƏMİ KAPİTAL** | | **2,345,750** | **2,228,555** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **3,883,326** | **3,281,321** |

**İdarə Heyətinin adından:**

PRİOR
PRİOR Credit BOKT
Açıq Səhmdar Cəmiyyəti
Open Joint Stock Company

**Kifayət Ağalarova**
**Baş direktor**

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Şamil Abdurahmanov**
**Baş mühasib**

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-54-cü səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# “PRİOR KREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəliri | 16 | 598,967 | 540,696 |
| Faiz xərci | 16 | (26,039) | (19,352) |
| **Xalis faiz gəliri** | | **572,928** | **521,344** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərinin (tutulması)/bərpası | 7 | (74,451) | 1,806 |
| Haqq və komissiya xərci | 17 | (15,586) | (11,289) |
| İcarənin ləğv edilməsi üzrə gəlir | | - | 710 |
| Digər gəlirlər | | 6,412 | 3,035 |
| Ümumi və inzibati xərclər | 18 | (364,330) | (385,844) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **124,973** | **129,762** |
| Mənfəət vergisi xərci | 9 | (7,778) | (25,952) |
| **İl üzrə xalis mənfəət** | | **117,195** | **103,810** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **117,195** | **103,810** |

**İdarə Heyətinin adından:**

**Kifayət Ağalarova**
**Baş direktor**

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Şamil Abdurahmanov**
**Baş mühasib**

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-54-cü səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "PRİOR KREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)*

| | Ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət/ (yığılmış zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | **3,000,000** | **(875,255)** | **2,124,745** |
| Yığılmış zərərlər vasitəsilə ödənilmiş kapitalda azalma | (900,000) | 900,000 | - |
| İl üzrə cəmi məcmu gəlir | - | 103,810 | 103,810 |
| **31 dekabr 2023-cü il** | **2,100,000** | **128,555** | **2,228,555** |
| İl üzrə cəmi məcmu gəlir | - | 117,195 | 117,195 |
| **31 dekabr 2024-cü il** | **2,100,000** | **245,750** | **2,345,750** |

**İdarə Heyətinin adından:**

**Kifayət Ağalarova**
**Baş direktor**

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Şamil Abdurahmanov**
**Baş mühasib**

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-54-cü səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## “PRİOR KREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət | | 124,973 | 129,762 |
| Mənfəət vergisindən əvvəlki mənfəətin xalis pul vəsaitləri ilə uyğunlaşdırılması üzrə düzəlişlər | | | |
| Köhnəlmə və amortizasiya xərcləri | 8 | 25,194 | 36,549 |
| Yığılmış faiz üzrə xalis dəyişiklik | | 1,937 | (4,894) |
| İcarənin ləğv edilməsi üzrə gəlir | | - | (709) |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin tutulması/(bərpası) | 7 | 74,451 | (1,806) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **226,555** | **158,902** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri:** | | | |
| Müştərilərə verilmiş kreditlərdə dəyişiklik | | (898,704) | 326,487 |
| Digər aktivlərdə dəyişiklik | | (7,079) | (35,156) |
| Digər öhdəliklərdə dəyişiklik | | 13,721 | 3,557 |
| **Əməliyyat fəaliyyətindən (yönələn)/daxil olan pul vəsaitləri** | | **(665,507)** | **453,790** |
| Ödənilmiş gəlir vergisi | | (39,159) | - |
| **Əməliyyat fəaliyyətindən yaranan (istifadə olunan)/ daxil olan xalis pul vəsaitləri** | | **(704,666)** | **453,790** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Borc alınmış vəsaitlər üzrə daxilolmalar | 11 | 1,040,000 | 1,456,000 |
| Borc alınmış vəsaitlərin qaytarılması | 11 | (678,852) | (1,582,589) |
| Əlaqəli tərəfə ödəniləcək vəsait üzrə daxilolmalar | 12 | 135,000 | - |
| Əlaqəli tərəfə ödəniləcək vəsaitin qaytarılması | 12 | (60,000) | - |
| İcarə öhdəliklərinin qaytarılması | 13 | (4,024) | (14,612) |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan/(istifadə olunan) xalis pul vəsaitləri** | | **432,124** | **(141,201)** |

## "PRİOR KREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)
*(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTMA | | (272,542) | 312,589 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ,** *ilin əvvəlinə* | 6 | **332,858** | **20,269** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ,** *ilin sonuna* | 6 | **60,316** | **332,858** |

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə Cəmiyyət tərəfindən ödənilmiş və alınmış faizlər müvafiq olaraq 23,989 AZN (31 dekabr 2023-cü il: 16,058 AZN) və 539,830 AZN (31 dekabr 2023-cü il: 534,612 AZN) təşkil etmişdir.

**İdarə Heyətinin adından:**

**Kifayət Ağalarova**
**Baş direktor**

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Şamil Abdurahmanov**
**Baş mühasib**

24 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-54-cü səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1 GİRİŞ

**Cəmiyyət və onun fəaliyyəti**

"Prior Kredit Bank Olmayan Kredit Təşkilatı" Açıq Səhmdar Cəmiyyəti ("Cəmiyyət") Azərbaycan Respublikasında təsis edilmişdir və Azərbaycan Respublikasında daimi olaraq fəaliyyət göstərir.

Cəmiyyət bank olmayan kredit təşkilatı kimi 4 may 2020-ci il tarixində 2006165031 (VÖEN) dövlət qeydiyyat nömrəsi ilə "Prior Kredit Bank Olmayan Kredit Təşkilatı" Açıq Səhmdar Cəmiyyəti olaraq yaradılmışdır.

Cəmiyyətin əsas fəaliyyəti Azərbaycan Respublikasında mikro, kiçik və orta biznes nümayəndələrinə və fiziki şəxslərə kreditlərin verilməsi də daxil olmaqla maliyyə xidmətləri göstərməkdən ibarətdir. Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasının Mərkəzi Bankı ("ARMB") tərəfindən tənzimlənir və biznes funksiyaları bank olmayan kredit təşkilatının ARMB tərəfindən verilmiş məhdud bank əməliyyatları üçün lisenziyası əsasında həyata keçirilir. Cəmiyyətin hüquqi ünvanı: Ziya Bünyadov prospekti 1965, Bakı AZ1029, Azərbaycan Respublikası.

**Cəmiyyətin səhmdarı**

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə Cəmiyyətin hər bir səhmin nominal dəyəri 700 AZN olan 3000 nizamnamə və tam ödənilmiş adi səhmləri olmuşdur. Cəmiyyətin səhmlərinin strukturu 31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə aşağıdakı kimi olmuşdur:

| **Səhmdar** | **31 dekabr 2024-cü il, %** | **31 dekabr 2023-cü il,%** |
|---|---|---|
| "Prior Leasing" ASC | 100 | 100 |
| **Cəmi** | **100** | **100** |

Cəmiyyətin son benefisiar sahibləri Məcidova Afaq və İsgəndərov İlkindir.

31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin 10 filialı (31 dekabr 2023-cü il: 10 filial) olmuşdur. 2024-cü il ərzində Cəmiyyətin orta hesabla 37 işçisi olmuşdur (31 dekabr 2023-cü il: 42 işçi).

## 2 CƏMİYYƏTİN FƏALİYYƏT MÜHİTİ

Cəmiyyətin öz fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir. Cəmiyyət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Qlobal təchizat zəncirinin pozulması, Rusiya Federasiyası və Ukrayna arasındakı münaqişə, eləcə də əmtəə malları üzrə artan istehlak tələbi əmtəə mallarının artan qiymətləri də daxil olmaqla 2022-ci ildə qlobal iqtisadiyyata önəmli inflyasiya təzyiqlərinin yaranması ilə nəticələnmişdir. 2024-cü ildə "Brent" markalı neftin 1 barel üçün orta qiyməti, 2023-cü ildə 83 ABŞ dolları olan qiyməti ilə müqayisədə 81 ABŞ dolları təşkil etmişdir. Rusiyadan ixrac olunan xam neftin Avropa İttifaqından kənar bazarlara çıxarılması və qlobal xam neftə dair tələblərin gözləntiləri qarşılamaması səbəbilə qlobal bazarlar yeni ticarət dinamikasına uyğunlaşdırılmışdır.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 8 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik artmamışdır.

Azərbaycan iqtisadiyyatı ötən ilin yanvar-dekabr ayları ərzində mövcud olmuş 1.1% artım ilə müqayisədə, 2024-cü ilin eyni dövrü üzrə 4.1% inkişaf etmişdir. Qeyri-neft və qaz sektoru 6.2% artdığı halda, neft və qaz sektorunda 0.3% artım müşahidə olunmuşdur.

Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

ÜDM 2023-cü il ilə müqayisədə 4.1% artaraq, 2024-cü ildə 126.3 milyard AZN-ə (74.3 milyard ABŞ dollarına) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2024-cü il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 47.6 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 26.6 milyard ABŞ dolları ixrac olunan məhsulların, 21.1 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BBB-" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service" ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi artımı daha çox vergi, hüquqi, tənzimləyici və siyasi hadisələrlə yanaşı, hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən asılıdır. Rəhbərlik, Cəmiyyətin fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün hadisələri və nəticədə, əgər varsa, Cəmiyyətin maliyyə vəziyyətinə hansı təsirləri göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil.

## 3 ƏHƏMİYYƏTLİ MÜHASİBAT UÇOTU PRİNSİPLƏRİNƏ DAİR MƏLUMAT

### Hazırlığın əsasları

Hazırkı maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına ("MHBS Mühasibat Uçotu Standartları") uyğun olaraq ilkin dəyər metoduna əsasən tərtib edilmişdir. Qeyd olunan maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot siyasətləri aşağıda göstərilir.

Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, Cəmiyyət uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin maliyyə hesabatlarının hazırlanması üçün ehtimal və təxminlərin əhəmiyyətli olduğu sahələr 4 saylı Qeyddə açıqlanır.

Cəmiyyətin əməliyyat valyutası Azərbaycan Respublikasının milli valyutası olan və Cəmiyyətlə bağlı baş verən əksər hadisələrin və vəziyyətlərin iqtisadi mahiyyətini əks etdirən Azərbaycan manatıdır (AZN).

Manat (AZN) həmçinin bu maliyyə hesabatlarının məqsədləri üçün təqdimat valyutasıdır.

**Əsas qiymətləndirmə üsulları**

**Fasiləsizlik prinsipi**

Hazırkı maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik, Azərbaycan Respublikasının qanunlarına və qaydalarına müvafiq olaraq ləğv etmək, kommersiya fəaliyyətini dayandırmaq və ya kreditorlardan müdafiə olunmaq yollarını axtarmaq niyyəti və ya zərurəti olmadan Cəmiyyətin yaxın gələcəkdə işini davam etdirəcəyini düşünür. Müvafiq olaraq, aktivlər və öhdəliklər normal şərtlər altında Cəmiyyətin aktivlərini reallaşdıracağı və öhdəliklərini yerinə yetirəcəyi əsaslar üzrə qeydə alınır.

Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipi üzrə təxminlərə dair rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisə və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

**Maliyyə alətləri**

Maliyyə aləti Cəmiyyətin maliyyə aktivinin və digər təşkilatın maliyyə öhdəliyinin və ya kapital alətinin yaranmasına səbəb olan hər hansı müqavilədir.

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər, ən yaxşı olaraq, fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında, davamlı olaraq, məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti modelləri və ya yaxın vaxtlarda həyata keçirilən əməliyyatlara əsaslanan modellər və ya investisiya qoyulan şəxslərin maliyyə məlumatlarının nəzərə alınması kimi qiymətləndirmə üsulları xarici bazar qiymətləri haqqında məlumatın mövcud olmadığı bəzi maliyyə alətlərinin ədalətli dəyərini ölçmək üçün istifadə olunur.

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər) və ya dolayısı ilə (yəni qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya edilmiş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir.

Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir.

Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz dərəcəsi üsulu maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması üsuludur. Effektiv faiz dərəcəsi təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. İlkin dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

**Maliyyə alətlərinin ilkin tanınması**

Maliyyə aktivləri ilkin olaraq tanındığı zaman, onlar müvafiq olaraq, aşağıdakı kateqoriyalardan birində təsnifləşdirilir: (1) mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər ("MZVƏD"), (2) digər məcmu gəlir vasitəsilə ədalətli dəyər ("DMGVƏD"), yaxud (3) amortizasiya edilmiş dəyərdə ("AD") qeyd edilmiş maliyyə aktivləri.

MZVƏD kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərdə qiymətləndirilən maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərləri üçün ehtiyat tanınır.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Cəmiyyətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

**Maliyyə aktivləri – təsnifat və sonrakı qiymətləndirmə - qiymətləndirmə kateqoriyaları**

Cəmiyyət maliyyə aktivlərini aşağıdakı kateqoriyalarda təsnifləşdirir: MZVƏD, DMGVƏD və AD. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Cəmiyyətin biznes modelindən və (ii) aktiv üzrə pul vəsaitlərinin hərəkətinin xüsusiyyətindən asılıdır.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- aktiv müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Borc aləti aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- aktiv həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD-də ölçülmüş kimi təsnif edilir.

Bununla yanaşı, ilkin tanıma zamanı Cəmiyyət amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Maliyyə aktivləri – təsnifat və sonrakı qiymətləndirmə - biznes model**

Biznes model Cəmiyyətin pul vəsaitlərinin hərəkəti əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Cəmiyyətin məqsədinin (i) aktivlərdən yalnız müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin əldə edilməsi ("müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan pul vəsaitlərinin hərəkətinin əldə edilməsi ("müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və MZVƏD kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Cəmiyyətin həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Cəmiyyətin nəzərə aldığı amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul vəsaitlərinin hərəkətinin əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar və aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları daxildir. Cəmiyyətin öz maliyyə aktivləri üçün biznes modellərin müəyyən edilməsi zamanı istifadə etdiyi əsas mülahizələr 4 saylı Qeyddə göstərilir.

**Maliyyə aktivləri – təsnifat və sonrakı qiymətləndirmə - pul vəsaitlərinin hərəkətinin xüsusiyyətləri**

Biznes model müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin əldə edilməsi və ya müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Cəmiyyət pul vəsaitlərinin hərəkətinin yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (YƏMFÖ təhlili). Belə bir qiymətləndirmə apararkən Cəmiyyət müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin əsas kredit razılaşmasının şərtlərinə uyğun olub-olmadığını, yəni faizlərə yalnız kredit riski üzrə ödənişlərin daxil olmasını, pulun zaman dəyərini, əsas kredit razılaşmasının digər risklərini və mənfəət marjasını nəzərə alır.

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi MZVƏD kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. YƏMFÖ təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir. Cəmiyyətin öz maliyyə aktivləri üçün YƏMFÖ təhlili həyata keçirdiyi zaman istifadə etdiyi əsas mülahizələr 4 saylı Qeyddə göstərilir.

**Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi**

Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Cəmiyyət cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi – ehtimal olunan kredit zərərləri üzrə kredit zərəri ehtiyatı**

Cəmiyyət amortizasiya olunmuş dəyərdə qiymətləndirilən kredit portfeli və maliyyə alətləri üzrə ehtimal olunan kredit zərərlərini (EOKZ) proqnozlar əsasında qiymətləndirir. Cəmiyyət hər bir hesabat tarixində maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərini qiymətləndirir və kredit zərəri ehtiyatını tanıyır. Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat.

Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri ehtimal olunan kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üzrə ehtimal olunan kredit zərərləri üçün maliyyə vəziyyəti haqqında hesabatda öhdəliyin tərkibində ayrıca ehtiyat tanınır. DMGVƏD kateqoriyasında qiymətləndirilən borc alətlərinin amortizasiya olunmuş dəyərində dəyişikliklər ehtimal olunan kredit zərərləri üçün ehtiyat çıxılmaqla mənfəət və ya zərərdə tanınır. Qalıq dəyərindəki digər dəyişikliklər digər məcmu gəlirlərdə DMGVƏD kateqoriyasında qiymətləndirilən borc alətləri üzrə "zərər çıxılmaqla gəlir" kimi tanınır.

Cəmiyyət maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. İlkin tanınma zamanı kredit üzrə dəyərsizləşməmiş maliyyə aləti 1-ci Mərhələyə təsnifləşdirilir. 1-ci Mərhələdə maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərləri növbəti 12 ay ərzində baş verə bilən defolt hadisələri nəticəsində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər, əgər daha qısadırsa ömürlük ehtimal olunan kredit zərərləri ("EOKZ") məbləğində qiymətləndirilir. Cəmiyyət ilkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artımın ("KRƏA") baş verdiyini müəyyən edərsə, aktiv 2-ci Mərhələyə köçürülür və həmin aktiv üzrə ehtimal olunan kredit zərərləri ömürlük ehtimal olunan kredit zərərləri əsasında, yəni müqavilədə göstərilən ödəmə tarixinə qədər, lakin gözlənilən hər hansı qabaqcadan ödənişləri nəzərə almaqla ("ömürlük EOKZ") qiymətləndirilir. Kredit riskində əhəmiyyətli dərəcədə artımın baş verməsinin Cəmiyyət tərəfindən müəyyən edilməsi qaydası 4 saylı Qeyddə təqdim edilir. Cəmiyyət maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsini müəyyən edərsə aktiv 3-cü Mərhələyə köçürülür və həmin aktiv üzrə ehtimal olunan kredit zərərləri ömürlük ehtimal olunan kredit zərərləri kimi qiymətləndirilir. 22 saylı Qeyddə ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsində istifadə edilən ilkin məlumatlar, fərziyyələr və hesablama üsulları haqqında məlumat, eləcə də Cəmiyyət tərəfindən proqnoz məlumatların ehtimal olunan kredit zərərləri modellərinə daxil edilməsi qaydası göstərilir.

**Maliyyə vəziyyəti haqqında hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi**

EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- Amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi balans dəyərindən çıxılmaqla;
- DMGVƏD-də ölçülən borc alətləri: aktivlərin balans məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

**Maliyyə aktivlərinin silinməsi**

Maliyyə aktivlərini bərpa etmək üçün Cəmiyyətin bütün praktiki imkanları tükəndikdə və Cəmiyyət belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Cəmiyyət müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

**Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları**

Maliyyə öhdəlikləri aşağıdakı kimi təsnifləşdirilir: – Amortizasiya olunmuş dəyərlə maliyyə öhdəlikləri; və ya – Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə əks etdirilən maliyyə öhdəlikləri (MZVƏD).

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliyinin tanınması müqavilə üzrə öhdəlik icra edildikdə və yaxud ləğv edildikdə və ya icra müddəti başa çatdıqda dayandırılır. Mövcud maliyyə öhdəliyi eyni kreditor tərəfindən əhəmiyyətli dərəcədə fərqli olan şərtlərlə mübadilə edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi uçota alınır və müvafiq qalıq dəyərləri üzrə fərqlər cari ilin mənfəəti kimi tanınır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassadakı pul vəsaitləri, banklarda saxlanılan depozitlər və ilkin ödəmə müddəti üç ay və ya daha az olan digər qısamüddətli yüksək likvidli investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyərində uçota alınır. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş maya dəyərində uçota alınır, çünki: (i) onlar müqavilə üzrə pul vəsaitləri hərəkətinin yığılması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü əks etdirir və (ii) onlar MZVƏD-də təyin olunmur.

**Müştərilərə verilmiş kreditlər**

İlin sonuna olan maliyyə vəziyyəti haqqında hesabatda "Müştərilərə verilmiş kreditlər" bəndinə müştərilərə verilmiş amortizasiya edilmiş dəyərdə qiymətləndirilən kreditlər daxildir; onlar ilk olaraq məxsusi birbaşa əməliyyat xərcləri əlavə edilməklə ədalətli dəyərdə, daha sonra effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərdə qiymətləndirilir.

**Əmlak və avadanlıqlar**

Əmlak və avadanlıqlar hər hansı yığılmış amortizasiya və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əmlak və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcudluğunu qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Əmlak və avadanlıqların balans dəyəri onların bərpa edilə bilən dəyərindən çox olduqda, bərpa edilə bilən məbləğədək silinir və fərq mənfəət və ya zərər haqqında hesabatda dəyərsizləşmə zərəri kimi uçota alınır.

Əmlak və avadanlıqların silinməsi üzrə yaranmış gəlir və zərər onların qalıq məbləğinə münasibətdə müəyyən edilir və mənfəət və ya zərər haqqında hesabatda gəlir/(zərər) kimi uçota alınır.

Təmir və istismar xərcləri baş verdiyi zaman mənfəət və zərər haqqında hesabatda uçota alınır.

Amortizasiya fərdi aktivlərin ehtimal olunan faydalı istifadə müddəti ərzində düz xətt əsasında hesablanır. Ehtimal olunan faydalı istifadə müddəti, qalıq dəyər və amortizasiya metodu hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və təxminlərdə hər hansı dəyişikliyin təsiri aşağıdakı illik dərəcələrlə perspektiv əsasda nəzərə alınır:

| | |
|---|---|
| Mebel və ofis avadanlıqları | 20% |
| Kompüter avadanlığı | 25% |
| İstifadə hüququ olan aktivlər | Müvafiq lizinq müqaviləsinin müddəti ərzində |

Əmlak və avadanlıqlar hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak və avadanlıq vasitələrinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabında tanınır.

**Qeyri-maddi aktivlər**

Qeyri-maddi aktivlərə proqram təminatı üzrə lisenziyalara və bu proqram təminatlarının istifadəyə uyğunlaşdırılmasına investisiya qoyuluşları aid edilir.

Ayrıca satın alınmış və müəyyən faydalı istifadə müddəti olan qeyri-maddi aktivlər yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla maliyyə vəziyyəti hesabatında tarixi dəyəri ilə tanınır. Amortizasiya qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddəti ərzində düz xətt metodu ilə hesablanır. Faydalı istifadə müddəti təxminləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir. Ayrıca satın alınmış və qeyri-müəyyən faydalı istifadə müddəti olan qeyri-maddi aktivlər isə maya dəyərindən dəyərsizləşmə zərərlərinin məbləği çıxıldıqdan sonra alınan məbləğdə tanınır.

**Borc götürülmüş vəsaitlər**

Borc götürülmüş vəsaitlər ilkin olaraq, borc götürmə ilə bağlı emissiya xərcləri çıxılmaqla, alınan kompensasiyanın ədalətli dəyəri olan ilkin dəyərlə tanınır. İlkin tanınmadan sonra faiz gətirən borclar effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə ölçülür. Amortizasiya olunmuş dəyər hər hansı emissiya xərcləri və hesablaşma üzrə hər hansı endirim və ya mükafat nəzərə alınmaqla hesablanır. Mənfəət və zərərlər öhdəliklərin tanınması dayandırıldıqda və ya dəyərsizləşdikdə, habelə amortizasiya prosesi zamanı mənfəət və zərər haqqında hesabatda tanınır.

**İcarələr**

Müqavilə bağlanarkən, Cəmiyyət müqavilənin icarə olduğunu və ya icarə elementləri ehtiva etdiyini qiymətləndirir. Bu hal, müqavilənin müəyyən bir ödəniş müqabilində müəyyən edilmiş aktivin təyin edilmiş bir müddət ərzində istifadəsinə nəzarət etmək hüququnun əldə edilməsi zamanı baş verir.

**Cəmiyyət icarəçi qismində**

Cəmiyyət qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanıma və ölçmə yanaşmasını tətbiq edir. Cəmiyyət icarə ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini, eləcə də əsas aktivlərdən istifadə hüququ təmin edən istifadə hüquqlarını aktiv olaraq tanıyır.

**İstifadə hüququ olan aktivlər**

Cəmiyyət aktivlərdən istifadə hüququnu icarənin başlanğıc tarixində tanıyır (əsas aktivin istifadə üçün mövcud olduğu tarix). İstifadə hüququ olan aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. İstifadə hüququ olan aktivlərin dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlama tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. İstifadə hüququ olan aktivlər icarə müddəti ərzində düz xətt əsasında amortizasiya olunur.

İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Cəmiyyətə keçirsə və ya dəyəri bir alış opsiyasının həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı istifadə müddəti istifadə olunmaqla hesablanır. İstifadə hüququ olan aktivlər də dəyərsizləşməyə məruz qalır.

***İcarə öhdəlikləri***

İcarənin başlanğıc tarixində Cəmiyyət, icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə, həmçinin Cəmiyyət tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Cəmiyyətin ləğvetmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Cəmiyyət icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin balans dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

İcarə öhdəlikləri digər öhdəliklərdən ayrı şəkildə təqdim olunur. İcarəyə götürən icarə öhdəliklərini maliyyə vəziyyəti haqqında hesabatda ayrı təqdim etmədiyi halda, həmin icarə öhdəliklərinin maliyyə vəziyyəti haqqında hesabatda hansı bənddə qeyd olunduğunu açıqlamalıdır.

**Qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarələri**

Cəmiyyət qısamüddətli icarənin tanınması üzrə istisnanı qısamüddətli icarələrinə (yəni başlanğıc tarixində icarə müddəti 12 ayadək olan və alış opsionunu daxil etməyən icarələr) tətbiq edir. Cəmiyyət, həmçinin aşağı dəyərli aktivlərin tanınması üzrə istisnanı aşağı dəyərli hesab edilən ofis avadanlığının icarəsinə tətbiq edir. Qısamüddətli icarələr üzrə icarə ödənişləri və aşağı dəyərli aktivlərin icarələri icarə müddəti ərzində düz xətt üsulu ilə xərc kimi tanınır.

**Yenilənə bilən müqavilələrin icarə müddətinin müəyyən olunmasında mühüm mühakimələr**

Cəmiyyət müqavilə müddətinin artırılması hüququndan istifadə edəcəyinə əmin olduğu halda, artırılması nəzərdə tutulan müddət ilə birgə icarə müddətini, icarə müqaviləsinin ləğv olunmayan müddəti olaraq və ya müqavilə müddətinin artırılması hüququndan istifadə etməyəcəyindən əmin olduqda artırılması nəzərdə tutulan müddəti icarə müqaviləsinin ləğv edilməsi seçimi ilə birgə müəyyən edir.

Cəmiyyət bütün icarə müqavilələri əsasında aktivlərini əlavə müddətə icarəyə vermək hüququna malikdir. Cəmiyyət müqavilənin yenilənməsi hüququndan istifadə edəcəyindən əsaslı şəkildə əmin olması ilə bağlı mühakimə irəli sürür. Cəmiyyət icarə müqaviləsinin yenilənməsi üçün iqtisadi təşəbbüs yaradan bütün müvafiq faktorları nəzərdən keçirir. Başlanğıc tarixindən sonra, Cəmiyyət icarə müqaviləsinin yenilənməsi (məsələn, biznes strategiyasında dəyişiklik) hüququna (və ya istifadə etməməsi hüququna) təsir edən və onun nəzarəti altında olan mühüm hadisə və ya şəraitdə dəyişikliyin olub-olmamasını nəzərə alaraq, icarə müddətini yenidən qiymətləndirir. Cəmiyyət müqavilədən asılı olaraq, həmin müqavilələrin əlavə iki və ya üç il müddətinə artırılması hüququndan istifadə edəcəyindən əsaslı şəkildə əmindir.

**Ödənilmiş kapital**

Ödənilmiş kapital səhmlərin buraxılması məqsədilə səhmdarlar tərəfindən töhfələrin qeydə alınması prosedurlarını müəyyən edir.

Ödənilmiş kapital səhmdarlar tərəfindən yatırılmış kapitalın məbləğini dəqiq şəkildə əks etdirməklə MHBS standartlarına uyğunluğu təmin edir. Əlavə olaraq, ödənilmiş kapital nizamnamə kapitalının və maliyyə hesabatları üçün zəruri olan istənilən əlaqəli açıqlamaların düzgün təsnifatını müəyyən edir. Bu siyasətə riayət olunması investor inamı və tənzimləyici qaydalara uyğunluğu təşviq etməklə maliyyə hesabatlarının şəffaflığı və hesabatlılığını təmin edir.

**Vergi qanunvericiliyi**

Mənfəət vergisi xərcləri ödənilməli olan cari vergi və təxirə salınmış vergi xərclərindən ibarətdir.

**Cari vergilər**

Ödənilməli olan cari vergi, il üzrə vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Vergiyə cəlb olunan mənfəət digər illərdə vergiyə cəlb olunmuş, yaxud gəlirdən çıxılan və heç vaxt vergiyə cəlb olunmayan, yaxud gəlirdən çıxılmayan gəlir və xərc maddələri ilə əlaqədar məcmu gəlirlər haqqında hesabatda əksini tapmış mənfəətdən fərqlənir. Cəmiyyətin cari vergi ilə bağlı öhdəliyi qanuni qüvvəyə minmiş və ya hesabat dövrünün sonuna tam həcmdə qüvvəyə minmiş vergi dərəcələrindən istifadə etməklə hesablanır.

**Təxirə salınmış vergilər**

Təxirə salınmış vergi maliyyə hesabatlarında əks olunan aktiv və öhdəliklərin balans dəyəri ilə vergiyə cəlb olunan mənfəətin hesablanmasında istifadə edilən müvafiq vergi bazası arasındakı müvəqqəti fərq əsasında tanınır. Təxirə salınmış vergi öhdəlikləri, ümumiyyətlə, vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün tanınır. Təxirə salınmış vergi aktivləri, ümumiyyətlə, gəlirdən çıxılan bütün müvəqqəti fərqlər üçün tanınır, bu şərtlə ki, belə müvəqqəti fərqlərin hesaba alınması üçün gələcəkdə vergiyə cəlb olunacaq mənfəətin əldə olunması ehtimal edilsin. Müvəqqəti fərq qudvildən və ya nə vergi mənfəətinə, nə də uçot mənfəətinə təsir göstərən əməliyyatda digər aktiv və öhdəliklərin ilkin tanınmasından (müəssisələrin birləşməsindən başqa) yaranarsa, bu cür aktiv və öhdəliklər tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat dövrünün sonunda təhlil edilir və aktivin bütün və ya müəyyən hissəsinin bərpa olunması üçün yetərli mənfəətin yaranacağı ehtimal edilməyən həddə qədər azaldılır.

Balans hesabatında aktiv və ya öhdəliyin balans dəyərinin onun vergi bazasından fərqli olması səbəbindən yaranan bütün müvəqqəti fərqlər üzrə təxirə salınmış vergitutma üçün ehtiyat yaradılır. O, öhdəliklərin ödənilməsi gözlənilən dövrə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə hesablanır və balans hesabatı tarixində qüvvəyə minmiş dərəcələrə (və qanunlara) əsaslanır. Təxirə salınmış vergitutma üzrə hərəkətlər mənfəət və zərər haqqında hesabatda silinir və ya kreditləşdirilir.

**Faiz**

***Effektiv faiz dərəcəsi***

Faiz gəlirləri və xərcləri effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə mənfəət və zərərdə tanınır. "Effektiv faiz dərəcəsi" maliyyə alətinin gözlənilən istifadə müddəti boyu gələcək pul ödənişləri və alışları dəqiq olaraq:

- maliyyə aktivinin ümumi balans dəyərinədək; və ya
- maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinədək diskontlaşdıran dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş aktivlər istisna olmaqla, digər maliyyə alətləri üçün effektiv faiz dərəcəsini hesablayarkən Cəmiyyət gələcək pul vəsaitlərini maliyyə alətlərinin bütün müqavilə şərtlərini nəzərə almaqla, lakin kredit zərərlərini nəzərə almadan qiymətləndirir. Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün kredit üzrə uyğunlaşdırılmış effektiv faiz dərəcəsi, ehtimal olunan kredit zərərləri daxil olmaqla gələcək pul vəsaitlərindən istifadə edilməklə hesablanır.

Effektiv faiz dərəcəsinin hesablanmasına effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsi olan əməliyyat xərcləri və ödənilmiş və ya alınmış haqlar və ya bəndlər daxildir. Əməliyyat xərclərinə maliyyə aktivi və ya maliyyə öhdəliyinin alınmasına və ya verilməsinə bilavasitə tətbiq edilə bilən məxsusi xərclər daxildir.

**Amortizasiya edilmiş dəyər və ümumi balans dəyəri**

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin "amortizasiya edilmiş dəyəri" maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınmada uçotu əsas ödənişləri çıxmaqla, ilkin məbləğ və ödəniş məbləği arasında hər hansı fərqin effektiv faiz metodundan istifadə etməklə, xalis amortizasiyanı daxil etməklə və ya çıxmaqla və maliyyə aktivləri üçün hər hansı ehtimal olunan kredit zərəri ehtiyatına uyğunlaşdırmaqla hesablanan məbləğdir.

Amortizasiya olunmuş dəyərində hesablanan "maliyyə aktivinin ümumi balans dəyəri" maliyyə aktivinin hər hansı ehtimal olunan kredit zərəri ehtiyatına uyğunlaşdırılmazdan əvvəl amortizasiya edilmiş dəyəridir.

**Faiz gəlirləri və xərclərinin hesablanması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin effektiv faiz dərəcəsi maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınması zamanı hesablanır. Faiz gəlirləri və ya xərclərinin hesablanması zamanı effektiv faiz dərəcəsi aktivin (aktiv kredit üzrə dəyərsizləşmədikdə) ümumi balans dəyərinə və ya öhdəliyin amortizasiya edilmiş dəyərinə tətbiq edilir. Effektiv faiz dərəcəsi faizin bazar dərəcələrində yerdəyişmələri əks etdirməsi üçün dəyişən dərəcəli alətlərin pul hərəkətinin dövri olaraq təkrar qiymətləndirilməsinin nəticəsi olaraq yenilənir.

Lakin ilkin tanınmadan sonra kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üzrə faiz gəlirləri isə effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya edilmiş dəyərinə tətbiq etməklə hesablanır. Aktiv artıq kredit üzrə dəyərsizləşmiş olmadıqda faiz gəlirlərinin hesablanması yenə də ümumi balans dəyəri üzərindən hesablanır.

İlkin tanınma zamanı kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün faiz gəliri aktivin amortizasiya olunmuş dəyərinə kredit üzrə tənzimlənmiş effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Aktivin kredit riski artırıldığı halda belə, faiz gəlirinin hesablanması ümumi əsasa geri qayıtmır.

**Təqdimat**

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda təqdim olunan effektiv faiz üsulu ilə hesablanan faiz gəlirlərinə amortizasiya olunmuş dəyərdə hesablanan maliyyə aktivləri üzrə faizlər daxildir.

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda təqdim olunan faiz xərclərinə amortizasiya olunmuş dəyərdə hesablanan maliyyə öhdəlikləri üzrə faizlər daxildir.

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda təqdim olunan digər faiz gəlirlərinə maliyyə icarələri üzrə xalis investisiyalar üzrə faiz gəlirləri daxildir.

**Gəlir və xərclərin tanınması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin effektiv faiz dərəcəsinin tərkib hissəsi olan haqq və komissiya gəliri və xərci effektiv faiz dərəcəsinə daxil edilmişdir.

Xidmətlər alındıqda istifadə olunan digər haqq və komissiya xərcləri əsasən əməliyyat və xidmət haqları ilə əlaqədardır.

Əməliyyat icarələri üzrə ödənişlər icarə müddəti ərzində düz xətt metodu əsasında mənfəət və ya zərərdə tanınır. Əldə edilmiş icarə ödənişləri icarə müddəti zamanı cəmi icarə xərclərinin ayrılmaz hissəsi olaraq tanınır.

**Haqq və komissiya gəlirinin tanınması**

Əlaqədar birbaşa xərclər ilə birgə kreditin əldə olunması xərcləri təxirə salınır və kreditin effektiv faiz dərəcəsinə düzəliş olaraq tanınır.

Kredit öhdəliyi xüsusi icarə təşkili ilə nəticələndiyi halda, kredit öhdəliyi xərcləri əlaqədar birbaşa xərclər ilə birgə təxirə salınır və yekun kreditin dərəcəsinə düzəliş olaraq tanınır. Kredit öhdəliyi xüsusi kredit təşkili ilə nəticələnmədiyi halda, kredit öhdəliyi xərcləri kredit öhdəliyinin geri qalan müddəti ərzində mənfəət və ya zərərdə tanınır. Kredit xidmətləri xərcləri xidmətlər təmin olunduğundan mənfəət olaraq tanınır. Bütün digər komissiyalar xidmətlər təmin olunduqda tanınır.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, dövlət pensiya sistemi işəgötürən tərəfindən cari ödənişlərin işçilərə cari ümumi ödənişlərdə faizlə hesablanmasını təmin edir. Bu xərc müvafiq əmək haqqının alındığı dövrə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilir. Cəmiyyət Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Cəmiyyətdə hesablanması tələb olunan təqaüd müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Haqq və komissiya gəlirlərinin tanınması**

Digər gəlir və xərclər hesablama metodu əsasında uçota alınır.

**İşçi heyəti üzrə xərclər**

Əməkhaqları, məvaciblər, Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna və sosial sığorta fondlarına ayırmalar, illik ödənişli məzuniyyətlər və xəstəlik məzuniyyətləri, mükafatlar və qeyri-nağd müavinətləri (məsələn, səhiyyə və uşaq bağçası xidmətləri, qidalanma) Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər maliyyə vəziyyəti hesabatında tanınmır amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

Şərti aktivlər maliyyə vəziyyəti hesabatında tanınmır, amma belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı olduqda hesabatlarda açıqlamalar verilir.

## 4 UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ EHTİMALLAR VƏ MÜLAHİZƏLƏR

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən hesabat tarixinə aktiv və öhdəliklərin hesabat məbləğlərinə və başa çatmış dövr ərzində hesabatı verilmiş gəlir və xərclərin məbləğinə təsir edən təxminlər və mülahizələr irəli sürməyi tələb edir. Rəhbərlik öz təxminlərini və mülahizələrini davamlı olaraq qiymətləndirir. Rəhbərlik öz təxminlərini və mülahizələrini tarixi təcrübəyə və şəraitdə ağlabatan hesab edilən müxtəlif digər amillərə əsaslandırır. Fərqli fərziyyələr və ya şərtlər altında faktiki nəticələr bu təxminlərdən fərqli ola bilər. Aşağıdakı təxminlər və mülahizələr Cəmiyyətin maliyyə vəziyyətinin təsviri üçün vacib hesab olunur.

Maliyyə hesabatlarında tanınan məbləğlərə ən əhəmiyyətli təsir göstərən mülahizələrə və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərə səbəb ola biləcək təxminlərə aşağıdakılar daxildir:

**EOKZ ehtiyatının ölçülməsi**

EOKZ-nin ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. EOKZ ölçülməsi üzrə metodologiya 20 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyatı üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ") və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makroiqtisadi ssenarilər modelləri.

Cəmiyyət müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ-nin ölçülməsi üzrə gələcəkyönümlü məlumatlar 20 saylı Qeyddə açıqlanır.

***Kredit Riski üzrə Əhəmiyyətli Artım ("KRƏA")***

Kredit riskinin əhəmiyyətli dərəcədə artdığını müəyyənləşdirmək üçün Cəmiyyət, hesabat tarixinin sonunda maliyyə alətinin ömürlük müddəti ərzində baş verən defolt riskini ilk dəfə tanınma tarixində mövcud olan risk ilə müqayisə edir. Qiymətləndirmə hesabat dövrünün sonunda kredit riskinin müəyyən bir səviyyəsinə çatmağı deyil, kredit riskinin nisbi artımını nəzərə alır. Cəmiyyət müştəri portfelinin davranış aspektləri də daxil olmaqla bir sıra amilləri əhatə edən xüsusi səy göstərmədən və xərc çəkmədən mövcud olan bütün məqbul və dəstəklənən gələcək məlumatları nəzərə alır. Cəmiyyət kredit riskinin artması üzrə davranış göstəricilərini kredit alətləri üzrə gecikmələrin baş verməsindən öncə təyin etmiş və istər fərdi kredit aləti səviyyəsində, istərsə də alətin aid olduğu portfel səviyyəsində müvafiq sayılan gələcəklə bağlı məlumatları kredit riskinin dəyərləndirilməsi zamanı nəzərə almışdır. 20 saylı Qeydə nəzər salın.

**İcarə öhdəliklərinin qiymətləndirilməsi və istifadə hüququ olan aktivlər**

16 saylı MHBS-nin tətbiqi aktivlər və icarə öhdəliklərindən istifadə hüququna dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Cəmiyyət yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

**Cari vergilər**

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa, Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyətin rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Cəmiyyət əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilər. Vergi və gömrük orqanları tərəfindən vergi öhdəlikləri ilə əlaqədar nəzərdən keçirilmə ilindən əvvəlki üç təqvim ili ərzində yoxlanılması üçün müddətlər açıq olaraq qalır. Müəyyən şərtlərdə araşdırmalar daha uzun müddətləri əhatə edə bilər.

## 5 YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Cəmiyyət Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (BMUSŞ) və BMUSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2024-cü il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

MUBSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-nin tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı MHBS-yə edilən Düzəlişlər)** düzəlişlərlə birgə dərc etmişdir. **Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir.

**1 saylı MUBS-a düzəlişlər: Öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsi** – 2020-ci ilin yanvar və 2022-ci ilin oktyabr aylarında MUBSŞ öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə dair tələbləri müəyyən etmək üçün 1 saylı MUBS-un 69-76-cı bəndlərinə düzəlişlər dərc etmişdir. Düzəlişlər aşağıdakı məsələlər üzrə məlumat təqdim edir:

- Ödənişin təxirə salınması hüququ dedikdə nəzərdə tutulan müddəalar;
- Hesabat dövrünün sonunda təxirəsalma hüququ mövcud olmalıdır;
- Müəssisənin təxirəsalma hüququndan istifadə etmə ehtimalı təsnifata heç bir təsir göstərmir;
- Yalnız konvertasiya edilə bilən öhdəliyə daxil edilmiş törəmə alətin özü kapital aləti olduqda, öhdəliyin şərtləri onun təsnifatına təsir etmir.

Əlavə olaraq, kredit sazişindən yaranan öhdəlik uzunmüddətli olaraq təsnif olunduqda və müəssisənin ödənişi təxirə salmaq hüququ on iki ay ərzində gələcək müqavilələrə riayət olunmasından asılı olduqda, açıqlama tələb edilməsi üçün tələb irəli sürülür.

2023-cü ilin may ayında MUBSŞ **"Təchizatçının maliyyələşdirilməsi üzrə razılaşmalar"**ı dərc etmişdir **(7 saylı MUBS və 7 saylı MHBS-yə edilmiş düzəliş)** – Bu düzəlişlər təchizatçının maliyyə razılaşmalarının şəffaflığının artırılması və onların müəssisənin öhdəliklərinə, pul vəsaitlərinin hərəkətinə və likvidlik riskinə məruz qalmasına təsiri barəsində açıqlamalar tələb edir. Açıqlama tələbləri, bəzi şirkətlərin təchizat üzrə maliyyə razılaşmalarının kifayət qədər nəzərə çarpmamasının səhmdarların təhlilinə maneə törətməsi üzrə səhmdarların narahatlığına MUBSŞ-nin verdiyi cavabdır.

Əksi qeyd olunmadığı halda, yeni standartlar Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

## 6 DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət bu yeni və düzəliş edilmiş standartları və şərhləri, əgər tətbiq olunarsa, qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

2023-cü ilin avqust ayında MUBSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə cəmiyyətin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 saylı MUBS**-a düzəliş dərc etmişdir. Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir. Düzəlişlər, erkən tətbiqetmə seçimi mövcud olmaqla, 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

30 may 2024-cü il tarixində MBUSŞ maliyyə alətlərinin təsnifatı və qiymətləndirilməsi ilə bağlı **9 saylı MHBS "Maliyyə Alətləri" və 7 saylı MHBS "Maliyyə Alətləri: Məlumatların Açıqlanması"**na düzəlişlər dərc etmişdir. Əsas dəyişikliklərə aşağıdakılar daxildir:

- Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması: müəyyən edilmiş meyarlara əsasən elektron köçürmə yolu ilə ödənilmiş borcların, ödəniş tarixindən əvvəl yerinə yetirilmiş öhdəliklər hesab edilməsinə imkan verir.
- Maliyyə aktivlərinin təsnifatı: əsas icarə müqavilələrinin şərtlərinin qiymətləndirilməsi üçün tövsiyələr verir, tələb əsaslı olmayan xüsusiyyətləri dəqiqləşdirir və müqavilə ilə əlaqəli alətlərin xüsusiyyətlərinə aydınlıq gətirir.
- Açıqlamalar: DMGVƏD vasitəsilə ədalətli dəyərdə ölçülən kapital investisiyaları və pul vəsaitlərinin hərəkətinə təsir edən şərti öhdəliklər üçün yeni tələblər müəyyən edir.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan hesabat dövrlərinə şamil edilir, həm retrospektiv, həm də erkən tətbiqinə icazə verilir.

18 iyul 2024-cü il tarixində MBUSŞ **"MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirilməsi – 11-ci Cild"**i dərc etmişdir.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: Standartları ilk dəfə tətbiq edən müəssisələr üçün hecinq uçotu ilə bağlı izahlar;
- saylı MHBS: Tanınmanın dayandırılması zamanı gəlir və ya zərərlərin tanınması ilə bağlı tövsiyələr;
- saylı MHBS: Ədalətli dəyər və əməliyyat dəyəri arasında təxirə salınmış fərqlər üzrə təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Təqdimat və kredit riskinin açıqlanmasına dair təkmilləşdirmələr;
- saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahlar;
- saylı MHBS: Əməliyyat dəyərinin müəyyən olunmasına dair əlavə təlimat;
- saylı MHBS: "De-fakto agent"inin müəyyən olunması üzrə açıqlamalar;
- 7 saylı BAS: Xərc metodu ilə əlaqədar təkmilləşdirmələr.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur.

9 aprel 2024-cü il tarixində MBUSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq **"Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması" adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də "əməliyyat mənfəət və ya zərəri" ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə yardım edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- mənfəət və ya zərər hesabatının strukturu;
- müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət tədbirləri); və
- ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı MUBS-u əvəz edəcək; 1 saylı MUBS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin "əməliyyat mənfəəti və ya zərər" hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında MUBSŞ tərəfindən 19 saylı **"İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması"** adlı yeni standartı dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Uçot Standartlarına uyğun olan konsolidə edilmiş maliyyə hesabatlarını hazırlamalıdır.

Yeni standart 1 yanvar 2027-ci il tarixinə və ya ondan sonrakı hesabat dövrlərinə şamil olunur, erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Dayanıqlılıq Standartları Şurası (BDSŞ) 26 iyun 2023-cü il tarixində **MHBS S1 "Dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər"** və **MHBS S2 "İqlim ilə əlaqədar açıqlamalar"** adlı ilk iki MHBS Dayanıqlılığın Açıqlanması Standartlarını dərc etmişdir. Standartlar müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı əhəmiyyətli məlumatların açıqlanması üçün tələblərdən ibarətdir, bu məlumatlar investorlar tərəfindən müəssisənin dəyərləndirilməsi zamanı əhəmiyyətli hesab olunur.

MHBS S1 müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı məlumatların açıqlanması üzrə ümumi tələbləri müəyyən edir. MHBS S1 müəssisə tərəfindən dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının hazırlanması və təqdim olunması qaydalarını nəzərdə tutur. Standart açıqlamaların məzmunu və təqdimatı ilə bağlı ümumi tələbləri əks etdirir, standarta əsasən açıqlanan məlumat müəssisə üçün ehtiyat təmin edən maliyyə hesabatının ilkin istifadəçiləri üçün faydalı olmalıdır.

MHBS S2 ümumi məqsədli maliyyə hesabatlarının ilkin istifadəçiləri üçün faydalı hesab olunan iqlim ilə əlaqədar risk və imkanlar haqqında məlumatların müəyyən olunması, qiymətləndirilməsi və açıqlanması üçün tələbləri müəyyən edir.

Hər iki standart 1 yanvar 2024-cü il tarixindən etibarən başlayan hesabat dövrlərinə şamil olunur. Standartların erkən tətbiqinə icazə verilir. Müəssisə MHBS S1 standartını daha erkən tətbiq etdiyi halda, həmin standartı müvafiq şəkildə açıqlamalı və eyni zamanda MHBS S2 standartını tətbiq etməlidir. BDSŞ standartlarının məcburi tətbiqi həmin standartların müvafiq qanunvericilik tərəfindən qəbul edilməsindən asılıdır. Bu, müəssisələrin standartları könüllü şəkildə (əlavə olaraq) tətbiq etmə bacarığına heç bir təsir göstərmir. Hazırkı hesabat tarixində bu standartlar Cəmiyyətin fəaliyyət göstərdiyi yurisdiksiya tərəfindən qəbul edilməmişdir.

**"Konsolidə edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Assosiasiya edilmiş və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı MUBS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı MUBS-a edilən düzəlişlər investor, onun assosiasiya edilmiş və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin assosiasiya edilmiş və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi MUBSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların və şərhlərin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 7 PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Bank hesablarındakı nağd pul vəsaitləri | 60,316 | 332,858 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **60,316** | **332,858** |

EOKZ-nin ölçülməsi məqsədilə pul vəsaitlərinin və pul vəsaitlərinin ekvivalentlərinin qalıqları 1-ci Mərhələyə daxil edilir. Bu qalıqlar üçün EOKZ əhəmiyyətsiz məbləği əks etdirir; buna görə də Cəmiyyət pul vəsaitləri və onların ekvivalentləri üçün hər hansı kredit zərəri ehtiyatı tanımır.

Cəmiyyətin pul vəsaitləri və onların ekvivalentlərinin balans dəyərləri Azərbaycan manatında əks olunmuşdur.

## 8 MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

| | 31 dekabr 2024-cü il | Cəmi ümumi kreditlərin faizi % | 31 dekabr 2023-cü il | Cəmi ümumi kreditlərin faizi % |
|---|---|---|---|---|
| Biznes kreditləri | 2,707,513 | 67% | 1,849,350 | 59% |
| İstehlak kreditləri | 1,323,467 | 33% | 1,282,926 | 41% |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **4,030,980** | **100%** | **3,132,276** | **100%** |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (359,752) | | (285,301) | |
| **Müştərilərə verilmiş kreditlər, xalis** | **3,671,228** | | **2,846,975** | |

| | 31 dekabr 2024-cü il | Cəmi ümumi kreditlərin faizi % | 31 dekabr 2023-cü il | Cəmi ümumi kreditlərin faizi % |
|---|---|---|---|---|
| Kənd təsərrüfatı | 1,326,490 | 33% | 1,045,617 | 33% |
| İstehlak | 1,323,467 | 33% | 1,282,926 | 41% |
| Ticarət və xidmətlər | 871,347 | 22% | 99,992 | 3% |
| Tikinti | 158,097 | 4% | 421,474 | 14% |
| Nəqliyyat | 98,038 | 2% | - | - |
| İstehsal | 77,804 | 2% | 86,043 | 3% |
| Digər | 175,737 | 4% | 196,224 | 6% |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **4,030,980** | | **3,132,276** | |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (359,752) | | (285,301) | |
| **Müştərilərə verilmiş kreditlər, xalis** | **3,671,228** | | **2,846,975** | |

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Cari hissə | 2,294,945 | 1,835,978 |
| Uzunmüddətli hissə | 1,376,283 | 1,010,997 |
| **Cəmi müştərilərə verilmiş ümumi kreditlər** | **3,671,228** | **2,846,975** |

**Müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti**

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü və 2023-cü illər üzrə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti haqqında məlumat təqdim olunmuşdur.

| | 31 dekabr 2024-cü il | | | |
|---|---|---|---|---|
| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | Cəmi |
| **Amortizasiya olunmuş maya dəyəri ilə müştərilərə verilmiş kreditlər** | | | | |
| Gecikməmiş | 3,244,017 | - | - | 3,244,017 |
| 30 gündən az gecikmiş | 483,349 | - | - | 483,349 |
| 30-89 gün gecikmiş | - | 15,527 | - | 15,527 |
| 90-179 gün gecikmiş | - | - | 40,984 | 40,984 |
| 180-360 gün gecikmiş | - | - | 27,347 | 27,347 |
| 360 gündən çox gecikmiş | - | - | 219,756 | 219,756 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **3,727,366** | **15,527** | **288,087** | **4,030,980** |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (112,999) | (7,875) | (238,878) | (359,752) |
| **Balans dəyəri** | **3,614,367** | **7,652** | **49,209** | **3,671,228** |

| | 31 dekabr 2023-cü il | | | |
|---|---|---|---|---|
| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | Cəmi |
| **Amortizasiya olunmuş maya dəyəri ilə müştərilərə verilmiş kreditlər** | | | | |
| Gecikməmiş | 2,652,351 | - | - | 2,652,351 |
| 30 gündən az gecikmiş | 188,845 | - | - | 188,845 |
| 30-89 gün gecikmiş | - | 19,181 | - | 19,181 |
| 90-179 gün gecikmiş | - | - | 15,526 | 15,526 |
| 180-360 gün gecikmiş | - | - | 110,607 | 110,607 |
| 360 gündən çox gecikmiş | - | - | 145,766 | 145,766 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **2,841,196** | **19,181** | **271,899** | **3,132,276** |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (85,046) | (5,891) | (194,364) | (285,301) |
| **Balans dəyəri** | **2,756,150** | **13,290** | **77,535** | **2,846,975** |

Aşağıdakı cədvəllər 31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə ehtimal olunan kredit zərəri üzrə ehtiyat haqqında məlumat verir:

| | 31 dekabr 2024-cü il | | | |
|---|---|---|---|---|
| | **1-ci Mərhələ** | **2-ci Mərhələ** | **3-cü Mərhələ** | **Cəmi** |
| **1 yanvar 2024-cü il** | 85,046 | 5,891 | 194,364 | 285,301 |
| Tanınmış yeni aktivlər | 105,014 | - | - | 105,014 |
| 1-ci Mərhələyə keçid | - | - | - | - |
| 2-ci Mərhələyə keçid | (7,638) | 7,638 | - | - |
| 3-cü Mərhələyə keçid | (18,937) | (8,279) | 27,216 | - |
| Digər hərəkətlər | (50,486) | 2,625 | 17,298 | (30,563) |
| **31 dekabr 2024-cü il** | **112,999** | **7,875** | **238,878** | **359,752** |

| | 31 dekabr 2023-cü il | | | |
|---|---|---|---|---|
| | **1-ci Mərhələ** | **2-ci Mərhələ** | **3-cü Mərhələ** | **Cəmi** |
| **1 yanvar 2023-cü il** | 67,794 | 36,968 | 182,345 | 287,107 |
| Tanınmış yeni aktivlər | 75,569 | - | - | 75,569 |
| 1-ci Mərhələyə keçid | - | - | - | - |
| 2-ci Mərhələyə keçid | (3,954) | 3,954 | - | - |
| 3-cü Mərhələyə keçid | (2,789) | (279) | 3,068 | - |
| Digər hərəkətlər | (51,574) | (34,752) | 8,951 | (77,375) |
| **31 dekabr 2023-cü il** | **85,046** | **5,891** | **194,364** | **285,301** |

**Saxlanılan girov və digər kredit təminatları**

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü və 31 dekabr 2023-cü il tarixlərinə girov növləri üzrə, dəyərsizləşmə çıxılmaqla müştərilərə verilmiş kreditlərin girov təminatı haqqında məlumat verilmişdir:

| | | | Saxlanılan girovun ədalətli dəyəri | | | |
|---|---|---|---|---|---|---|
| | **Ümumi balans dəyəri** | **Ehtimal olunan kredit zərəri üzrə ehtiyat** | **Balans dəyəri** | **Daşınar əmlak** | **Daşınmaz əmlak** | **Cəmi** |
| **Fərdi müştərilərə verilmiş kreditlər** | | | | | | |
| Biznes kreditləri | 2,707,513 | (184,801) | 2,522,712 | 1,288,100 | 1,275,372 | 2,563,472 |
| İstehlak kreditləri | 1,323,467 | (174,951) | 1,148,516 | - | 610,000 | 610,000 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **4,030,980** | **(359,752)** | **3,671,228** | **1,288,100** | **1,885,372** | **3,173,472** |

| | Ümumi balans dəyəri | Ehtimal olunan kredit zərəri üzrə ehtiyat | Saxlanılan girovun ədalətli dəyəri | | | Cəmi |
|---|---|---|---|---|---|---|
| | | | Balans dəyəri | Daşınar əmlak | Daşınmaz əmlak | |
| **Fərdi müştərilərə verilmiş kreditlər** | | | | | | |
| Biznes kreditləri | 1,849,350 | (184,668) | 1,664,682 | 1,265,839 | 1,280,721 | 2,546,560 |
| İstehlak kreditləri | 1,282,926 | (100,633) | 1,182,293 | - | 530,000 | 530,000 |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **3,132,276** | **(285,301)** | **2,846,975** | **1,265,839** | **1,810,721** | **3,076,560** |

**Əhəmiyyətli kredit riskləri**

31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin kredit qalığı kapitalının 10%-ni (31 dekabr 2023-cü il: 0) keçən müştərisi olmamışdır.

**Kreditlərin ödəniş müddətləri**

Kredit portfelinin müddətləri haqqında məlumat 20 saylı Qeyddə verilmişdir. Burada hesabat tarixindən başlayaraq kreditlərin müqavilə üzrə qalan ödəniş müddətləri göstərilmişdir.

Cəmiyyətin müştərilərə verdiyi kreditlərin balans dəyəri Azərbaycan manatı ilə ifadə edilmişdir.

## 9 ƏMLAK, AVADANLIQ VƏ QEYRİ-MADDİ AKTİVLƏR

| | Mebel və ofis avadanlıqları | Kompüter avadanlığı | İstifadə hüququ olan aktivlər | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | |
| **1 yanvar 2023-cü il** | **21,960** | **57,149** | **46,110** | **34,505** | **159,724** |
| İcarənin ləğv edilməsi | - | - | (15,188) | - | (15,188) |
| **31 dekabr 2023-cü il** | **21,960** | **57,149** | **30,922** | **34,505** | **144,536** |
| **31 dekabr 2024-cü il** | **21,960** | **57,149** | **30,922** | **34,505** | **144,536** |
| **Yığılmış köhnəlmə və amortizasiya** | | | | | |
| **1 yanvar 2023-cü il** | **(6,327)** | **(22,701)** | **(20,680)** | **(5,189)** | **(54,897)** |
| İl üzrə tutulmalar | (4,392) | (14,287) | (14,420) | (3,450) | (36,549) |
| İcarənin ləğv edilməsi | - | - | 7,242 | - | 7,242 |
| **31 dekabr 2023-cü il** | **(10,719)** | **(36,988)** | **(27,858)** | **(8,639)** | **(84,204)** |
| İl üzrə tutulmalar | (4,392) | (14,288) | (3,064) | (3,450) | (25,194) |
| **31 dekabr 2024-cü il** | **(15,111)** | **(51,276)** | **(30,922)** | **(12,089)** | **(109,398)** |
| **Xalis qalıq dəyəri** | | | | | |
| **31 dekabr 2024-cü il** | **6,849** | **5,873** | **-** | **22,416** | **35,138** |
| **31 dekabr 2023-cü il** | **11,241** | **20,161** | **3,064** | **25,866** | **60,332** |

31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə girov qoyulmalı olan heç bir əmlak və avadanlıq olmamışdır.

## 10 TƏXİRƏ SALINMIŞ VERGİ ÖHDƏLİYİ

Cəmiyyət cari mənfəət vergisi ödəmələrini və vergi bazalarını Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq aktiv və öhdəliklərdə dəyərləndirir və əks etdirir və bu hesablamalar MHBS Mühasibat Uçotu Standartlarından fərqlənir.

Bəzi xərclərin vergi bazasının hesablanması zamanı nəzərə alınmaması və bəzi gəlirlərin vergiyə tabe tutulmaması nəticəsində Cəmiyyətin daimi vergi fərqləri yaranır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin balans dəyəri ilə onların vergi hesabatındakı balans dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir.

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi xüsusilə fərqli şərhlərə və dəyişikliklərə yol aça bilər. Bundan əlavə, vergi qanunvericiliyinə dair rəhbərliyin şərhi vergi orqanlarının şərhindən fərqlənə biləcəyi üçün, sövdələşmələrə vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Cəmiyyətin maliyyə vəziyyəti haqqında hesabatı üçün əhəmiyyətli olacaq əlavə vergilər, cərimələr və faizlər təyin oluna bilər.

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | |
| Müştərilərə verilmiş kreditlər | 344,805 | 104,634 |
| İcarə öhdəliyi | - | 4,024 |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | 2,017 | - |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **346,822** | **108,658** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | | |
| Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər | (331) | (3,395) |
| Digər öhdəliklər | (4,446) | (6,585) |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **(4,777)** | **(9,980)** |
| Xalis vergi bazasını artıran müvəqqəti fərqlər | 342,045 | 98,678 |
| **Xalis vergi bazasını artıran müvəqqəti fərqlər (20%)** | **68,409** | **19,736** |
| Tanınmamış təxirə salınmış vergi aktivləri | - | 19,736 |
| **Təxirə salınmış vergi aktivi 20%** | **68,409** | **-** |

31 dekabr 2024-cü və 2023-cü il tarixlərində başa çatmış illər üzrə vergi xərcləri ilə mühasibat uçotu mənfəəti arasındakı əlaqə aşağıdakı kimidir:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Gəlir vergisindən əvvəl mənfəət | 124,973 | 129,762 |
| Qanunla müəyyən edilmiş vergi dərəcəsi ilə vergi | 20% | 20% |
| Qanunla müəyyən edilmiş dərəcə ilə nəzəri vergi tutulması | (24,995) | (25,952) |
| Uçota alınmamış təxirə salınmış vergi aktivində dəyişiklik | 19,736 | - |
| Daimi fərqlərin vergi təsiri | (2,519) | - |
| **Gəlir vergisi xərcləri** | **(7,778)** | **(25,952)** |
| Cari gəlir vergisi xərcləri | (76,187) | (25,952) |
| Təxirə salınmış vergi aktivində dəyişiklik | 68,409 | - |
| **Gəlir vergisi xərcləri** | **(7,778)** | **(25,952)** |

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Təxirə salınmış vergi aktivi** | | |
| **Gələcək dövrə keçirilmiş qalıq** | - | - |
| Mənfəət və ya zərər hesablarına daxil edilmiş dövr üzrə təxirə salınmış mənfəət vergisi aktivində dəyişiklik | 68,409 | - |
| **Gələcək dövrə keçirilən qalıq** | **68,409** | - |

## 11 DİGƏR AKTİVLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Müsadirə edilmiş aktivlər | 27,015 | 27,015 |
| Digər | 21,220 | 14,141 |
| **Cəmi digər aktivlər** | **48,235** | **41,156** |

Cəmiyyətin digər aktivlərinin balans dəyəri Azərbaycan manatı ilə ifadə edilmişdir.

## 12 BORC ALINMIŞ VƏSAİTLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Borc alınmış vəsaitlər | 1,345,576 | 984,428 |
| Hesablanmış faiz | 1,680 | 1,760 |
| **Cəmi borc alınmış vəsaitlər** | **1,347,256** | **986,188** |

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **İlinə əvvəlinə qalıq** | 986,188 | 1,111,586 |
| Daxilolmalar | 1,040,000 | 1,456,000 |
| Borcun geri ödənilməsi | (678,852) | (1,582,589) |
| **Pul vəsaitlərinin hərəkətinin maliyyələşdirilməsi üzrə cəmi dəyişikliklər** | **1,347,336** | **984,997** |
| **Nağdsız dəyişikliklər** | | |
| Faiz xərci | 23,907 | 17,249 |
| Ödənilmiş faiz | (23,987) | (16,058) |
| **İlin sonuna qalıq** | **1,347,256** | **986,188** |

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Cari hissə | 1,056,899 | 622,366 |
| Uzunmüddətli hissə | 290,357 | 363,822 |
| **Cəmi borc alınmış vəsaitlər** | **1,347,256** | **986,188** |

Cəmiyyətin borc alınmış vəsaitlərinin balans dəyəri Azərbaycan manatı ilə ifadə edilmişdir.

30 yanvar 2024-cü il tarixində Cəmiyyət və "Bank Respublika" ASC arasında illik 12% effektiv faiz dərəcəsi və ödəmə tarixi 30 yanvar 2025-ci il olmaqla, dəyəri 100.000 AZN təşkil edən yeni kredit xətti müqaviləsi imzalanmışdır.

29 fevral 2024-cü il tarixində Cəmiyyət və "Bank Respublika" ASC arasında illik 2% effektiv faiz dərəcəsi və ödəmə tarixi 1 mart 2025-ci il olmaqla, dəyəri 350.000 AZN təşkil edən yeni kredit xətti müqaviləsi imzalanmışdır.

3 iyul 2024-cü il tarixində Cəmiyyət və "Bank Respublika" ASC arasında illik 2% effektiv faiz dərəcəsi və ödəmə tarixi 3 iyul 2025-ci il olmaqla, dəyəri 161.000 AZN təşkil edən yeni kredit xətti müqaviləsi imzalanmışdır.

9 oktyabr 2024-cü il tarixində Cəmiyyət və "Bank Respublika" ASC arasında illik 2% effektiv faiz dərəcəsi və ödəmə tarixi 9 oktyabr 2025-ci il olmaqla, dəyəri 300.000 AZN təşkil edən yeni kredit xətti müqaviləsi imzalanmışdır.

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində Cəmiyyət Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyindən 2-2,5% effektiv illik faiz dərəcəsi ilə 129.000 AZN məbləğində borc vəsaitləri götürmüşdür.

## 13 ƏLAQƏLİ TƏRƏFLƏRƏ ÖDƏNİLƏCƏK MƏBLƏĞ

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində Cəmiyyət səhmdardan 12% faiz dərəcəsi ilə 135.000 AZN məbləğində kredit götürmüş və 60.000 AZN məbləğində ödəniş həyata keçirmişdir.

31 dekabr 2024-cü il tarixinə əlaqəli tərəfə ödəniləcək vəsait 75,000 AZN (31 dekabr 2023-cü il: sıfır) və əlaqəli tərəfə ödəniləcək vəsait üçün hesablanmış faizlər 2,017 AZN məbləğində olmuşdur (31 dekabr 2023-cü il: sıfır).

## 14 İCARƏ ÖHDƏLİYİ

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **İcarə öhdəliyi:** | | |
| İcarə öhdəlikləri (cari) | - | 4,024 |
| İcarə öhdəlikləri (uzunmüddətli) | - | - |
| **Cəmi icarə öhdəliyi** | **-** | **4,024** |

31 dekabr 2023-cü il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

| | Bir il ərzində | Cəmi |
|---|---|---|
| İcarə ödənişləri | 4,139 | 4,139 |
| Maliyyə xərcləri | (115) | (115) |
| **31 dekabr 2023-cü il tarixinə xalis cari dəyər** | **4,024** | **4,024** |

31 dekabr 2024-cü il tarixinə maliyyə öhdəliklərinin ilin əvvəlinə və sonuna olan məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən əldə edilən müvafiq nağd və nağdsız pul dəyişiklikləri ilə tutuşdurulması aşağıda göstərilmişdir:

| | 1 yanvar 2024-cü il tarixinə | Nağdsız dəyişikliklər *Faiz xərci* | Nağdsız dəyişikliklər *İcarənin ləğv edilməsinin təsiri* | Nağdsız dəyişikliklər *Əsas borc və faiz ödənişləri* | Yenidən təsnifləşdirmə | 31 dekabr 2024-cü il tarixinə |
|---|---|---|---|---|---|---|
| Cari hissə | 4,024 | 115 | - | (4,139) | - | - |
| Uzunmüddətli hissə | - | - | - | - | - | - |
| **Cəmi** | **4,024** | **115** | **-** | **(4,139)** | **-** | **-** |

31 dekabr 2023-cü il tarixinə maliyyə öhdəliklərinin ilin əvvəlinə və sonuna olan məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən əldə edilən müvafiq nağd və nağdsız pul dəyişiklikləri ilə tutuşdurulması aşağıda göstərilmişdir:

| | **1 yanvar 2023-cü il** | **Nağdsız dəyişikliklər** *Faiz xərci* | **Nağdsız dəyişikliklər** *İcarənin ləğv edilməsinin təsiri* | **Pul vəsaitlərinin axını** *Əsas borc və faiz ödənişləri* | **Yenidən təsnifləşdirmə** | **31 dekabr 2023-cü il tarixinə** |
|---|---|---|---|---|---|---|
| Cari hissə | - | 2,103 | - | (2,103) | 4,024 | 4,024 |
| Uzunmüddətli hissə | 27,291 | - | (8,655) | (14,612) | (4,024) | - |
| **Cəmi** | **27,291** | **2,103** | **(8,655)** | **(16,715)** | **-** | **4,024** |

Cəmiyyətin icarə öhdəliyinin balans dəyəri Azərbaycan manatı ilə ifadə edilir.

## 15 DİGƏR ÖHDƏLİKLƏR

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| Ödəniləcək mənfəət vergisi | 62,980 | 25,952 |
| Peşəkar xidmətlər üzrə ödəniləcək vəsaitlər | 28,332 | 23,102 |
| İşçilərə ödəniləcək vəsaitlər | 21,991 | 12,283 |
| Digər | - | 1,217 |
| **Cəmi digər öhdəliklər** | **113,303** | **62,554** |

Cəmiyyətin digər öhdəliklərinin balans dəyəri Azərbaycan manatı ilə ifadə edilmişdir.

## 16 ÖDƏNİLMİŞ KAPİTAL

Azərbaycan Respublikası Mərkəzi Bankının tələblərinə və Mülki Məcəllənin 103.5-ci Maddəsinə müvafiq olaraq, ikinci və ya növbəti maliyyə ilinin sonunda xalis aktivləri səhmdar kapitalından aşağı olaraq istənilən Cəmiyyət müvafiq qaydada öz səhmdar kapitalında azalmanı elan etməli və rəsmi şəkildə qeydə almalıdır. Əlavə olaraq, xüsusilə 4.3.1 saylı "Bank olmayan kredit təşkilatları" adlı bank olmayan kredit təşkilatları üçün prudensial qaydalara müvafiq olaraq, rəsmi kapitalı 300,000 AZN-dən aşağı olmayan cəmiyyətlər üçün fasiləsizlik prinsipi ilə bağlı heç bir risk mövcud deyil.

Azərbaycan Respublikası Mərkəzi Bankının tələblərinə müvafiq olaraq Cəmiyyət 31 dekabr 2023-cü il ərzində öz kapitalını yığılmış zərərlər hesabına 900,000 AZN-ə qədər azaltmışdır.

31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin səhmdar kapitalı hər biri 700 AZN olan 3,000 ədəd adi səhmdən ibarət olmaqla, 2,100,000 AZN (31 dekabr 2023-cü il: hər biri 700 AZN olan 3,000 ədəd adi səhm) təşkil etmişdir.

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə Cəmiyyətin mülkiyyət hüququ aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2024-cü il % | 31 dekabr 2023-cü il % |
|---|---|---|
| "Prior Lizinq" ASC | 100.00 | 100.00 |
| **Cəmi** | **100.00** | **100.00** |

## 17 XALİS FAİZ GƏLİRİ

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəliri** | | |
| Müştərilərə verilmiş kreditlər | 598,967 | 540,696 |
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış cəmi faiz** | **598,967** | **540,696** |
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz xərci** | | |
| Borc alınmış vəsaitlər | (23,907) | (17,249) |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | (2,017) | - |
| İcarə öhdəlikləri | (115) | (2,103) |
| **Effektiv faiz metodundan istifadə etməklə hesablanmış cəmi faiz** | **(26,039)** | **(19,352)** |
| **Xalis faiz gəliri** | **572,928** | **521,344** |

## 18 HAQQ VƏ KOMİSSİYA XƏRCİ

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Hesablaşma əməliyyatları | 8,867 | 8,213 |
| Digər | 6,719 | 3,076 |
| **Cəmi haqq və komissiya xərcləri** | **15,586** | **11,289** |

## 19 ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əməkhaqqı və əlaqəli xərclər | 259,367 | 288,981 |
| Köhnəlmə və amortizasiya xərcləri | 25,194 | 36,549 |
| Sistem dəstəyi xərcləri | 22,400 | 28,094 |
| Peşəkar xərclər | 16,368 | 17,972 |
| İcarə xərcləri | 8,077 | - |
| Rabitə xərcləri | 4,278 | 4,179 |
| Digər xərclər | 28,646 | 10,069 |
| **Cəmi ümumi və inzibati xərclər** | **364,330** | **385,844** |

## 20 RİSKLƏRİN İDARƏ EDİLMƏSİ, KORPORATİV İDARƏÇİLİK VƏ DAXİLİ NƏZARƏT

### Korporativ idarəetmə strukturu

Cəmiyyət Azərbaycan qanunvericiliyinə əsasən açıq səhmdar cəmiyyəti kimi təsis edilmişdir. Cəmiyyətin ali idarəedici orqanı Təsisçilərin Ümumi Yığıncağıdır. Bu yığıncaq illik olaraq və ya fövqəladə hallarda çağırılır. Təsisçilərin Ümumi Yığıncağı Cəmiyyətin əməliyyatlarına dair strateji qərarlar qəbul edir.

Təsisçilərin Ümumi Yığıncağı Direktorlar Şurasını təyin edir. Direktorlar Şurası Cəmiyyətin fəaliyyətinə ümumi nəzarəti təmin edir.

Azərbaycan qanunvericiliyi və Cəmiyyətin nizamnaməsi Direktorlar Şurasının və direktorun təsdiq etdiyi qərarlar siyahısını müəyyən edir.

Cəmiyyətin ümumi fəaliyyətinə Cəmiyyətin baş direktoru rəhbərlik edir. Cəmiyyətin baş direktoru səhmdarın qərarlarının icrasına cavabdehdir.

### Daxili nəzarət siyasəti və prosedurları

Baş direktor Cəmiyyətdə əməliyyatların həcminə və xarakterinə uyğun olan daxili nəzarət sistemlərinin işlənib hazırlanması, icrası və saxlanmasına görə məsuliyyət daşıyır.

Daxili nəzarət sistemlərinin məqsədi aşağıdakıları təmin etməkdir:

- risklərin düzgün və hərtərəfli qiymətləndirilməsi və idarə olunması;
- düzgün biznes, mühasibatlıq və maliyyə hesabatı funksiyaları, o cümlədən əməliyyatların düzgün təsdiqi, emalı və qeydə alınması;
- mühasibatlıq qeydlərinin, rəhbərlik məlumatının, normativ hesabatların tamlığı, dəqiqliyi və vaxtında hazırlanması;
- İT sistemlərinin etibarlılığı, məlumatlar və sistemlərin bütövlüyü və mühafizəsi;

- saxtakarlıq və ya qeyri-qanuni hərəkətlərin, o cümlədən aktivlərin mənimsənilməsinin aradan qaldırılması;
- qanun və qaydaların tələblərinə uyğunluq.

Rəhbərlik risklərin aşkarlanması və qiymətləndirilməsi, nəzarət sistemlərinin yaradılması və onların səmərəliliyinin yoxlanılmasına görə məsuliyyət daşıyır. Rəhbərlik Cəmiyyətin daxili nəzarət sistemlərinin səmərəliliyinə nəzarət edir və mütəmadi olaraq əlavə nəzarət sistemləri tətbiq edir, yaxud zəruri hesab olunduqda, mövcud nəzarət sistemlərinə düzəlişlər edir.

Daxili audit xidmətinin əsas funksiyalarına daxildir:

- bütövlükdə daxili nəzarət sisteminin auditi və səmərəliliyinin qiymətləndirilməsi, əsas rəhbərlik strukturlarının qərarlarının icrası;
- Cəmiyyətin daxili sənədləri (metodlar, proqramlar, qaydalar və prosedurlar) ilə tənzimlənən risklərin qiymətləndirilməsi metodologiyasının və risklərin idarə edilməsi prosedurlarının səmərəliliyinin auditi;
- mühasibatlıq və hesabat funksiyasının ədalətliliyi, tamlığı və vaxtında icrasının, maliyyə məlumatının toplanması və təqdim olunmasının etibarlılığının (o cümlədən, etibarlılığı, tamlığı və obyektivliyi) auditi və sınaqdan keçirilməsi;
- Cəmiyyətin əmlakının mühafizəsinin tətbiq olunan üsullarının auditi, əməliyyatların iqtisadi əsaslandırılması və səmərəliliyinin qiymətləndirilməsi və sair;
- daxili nəzarət sistemi prosesləri və prosedurlarının auditi.

Daxili Audit funksiyası rəhbərlikdən ayrıdır və birbaşa Müşahidə Şurasına hesabat verir. Daxili Audit yoxlamalarının nəticələri müvafiq biznes prosesi menecerləri ilə müzakirə olunur, yekun nəticələr isə Cəmiyyətin rəhbərliyinə təqdim olunur.

Cəmiyyətin daxili nəzarət sistemi aşağıdakı şəxslərdən ibarətdir:

- Baş direktor və Direktorlar Şurası;
- Baş mühasib;
- Təhlükəsizlik funksiyası, o cümlədən İT təhlükəsizlik;
- İnsan resursları funksiyası.

Müəyyən edilmiş standartlar, siyasətlər və prosedurlara uyğunluq üzrə məsul olan digər əməkdaşlar, bölmə və funksiyalar, o cümlədən:

- filialların və biznes bölmələrinin rəhbərləri;
- hüquqşünas – hüquqi və normativ tələblərə uyğunluq üzrə məsul olan əməkdaş;
- nəzarət öhdəliklərinə malik digər əməkdaşlar/bölmələr.

Rəhbərlik Cəmiyyətin risklərin idarə edilməsi və daxili nəzarət sistemləri, o cümlədən daxili audit funksiyası ilə əlaqədar ARMB-nin tələblərinə uyğun olduğunu və risklərin idarə edilməsi və daxili nəzarət sistemlərinin əməliyyatların həcmi, xarakteri və mürəkkəbliyinə müvafiq olduğunu hesab edir.

**Risklərin idarə edilməsi siyasəti və prosedurları**

Cəmiyyətin üzləşdiyi riskləri müəyyən etmək, təhlil etmək və idarə etmək, müvafiq risk limitlərini və nəzarəti müəyyən etmək, risk səviyyələrinə və limitlərə riayət olunmasına davamlı olaraq nəzarət etmək məqsədi daşıyan Risklərin idarə edilməsi şöbəsi vardır.

Direktorlar Şurası risklərin idarə edilməsi çərçivəsində nəzarətə, əsas risklərin idarə edilməsinə nəzarətə, risklərin idarə edilməsi siyasətlərinə, o cümlədən, böyük xərclərin əhəmiyyətli dərəcədə təsdiqinə görə məsuliyyət daşıyır.

Baş direktor risklərin azaldılması üzrə tədbirlərin monitorinqi və həyata keçirilməsinə, Cəmiyyətin müəyyən edilmiş risk parametrləri daxilində fəaliyyət göstərməsinin təmin edilməsinə görə məsuliyyət daşıyır. O, həmçinin, ARMB-nin müəyyən etdiyi risk hədlərinə Cəmiyyətin əməl etməsinə nəzarət edir. Cəmiyyətin risklərin idarə edilməsi prosedurlarının səmərəliliyinə və onların ardıcıl tətbiqinə nəzarət etmək məqsədilə, Cəmiyyətin baş direktoru daxili audit funksiyasının hazırladığı hesabatları müntəzəm olaraq əldə edir, bu hesabatların məzmununu müzakirə edir və təklif edilən təshihedici tədbirləri nəzərdən keçirir.

**Kredit riski – Ehtimal olunan kredit zərəri üzrə yaranan vəsaitlər**

***Kredit riskində əhəmiyyətli artım***

İlkin tanınmadan sonra maliyyə aləti üzrə defolt riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığını müəyyən edərkən Cəmiyyət əlavə xərc və ya səy tələb etməyən əsaslı və dəstəkləyici məlumatı nəzərdən keçirir. Bura kəmiyyət və keyfiyyət məlumatı, Cəmiyyətin keçmiş təcrübəsi, kredit qiymətləndirməsinə əsaslanan təhlil və proqnoz məlumatları daxildir.

Qiymətləndirmənin məqsədi aşağıdakıları müqayisə etməklə kredit riskində əhəmiyyətli artımın baş verib-vermədiyini müəyyən etməkdir:

- hesabat tarixində qalan dövr üçün defolt ehtimalı (DE); və
- kredit riskinə məruz qalan məbləğin ilkin tanınması zamanı müəyyən edilmiş və hazırkı tarixə qalan dövr üçün hesablanmış defolt ehtimalı (vaxtından əvvəl ödənişə dair gözləntilərdə dəyişikliklərə uyğun düzəliş edilməklə).

Cəmiyyət kredit riskində əhəmiyyətli artımın olub-olmadığını müəyyən etmək üçün aşağıdakı meyarlardan istifadə edir:

- kredit məbləği 30 gündən çox gecikdirilmişdir;
- müqavilə kredit üzrə dəyərsizləşmiş maliyyə aktivinin təyinatında təsvir edilməyən şərtlər altında restrukturlaşdırılmışdır;
- bank bir və ya daha çox gün müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi üçün Cəmiyyətin hesab qalıqlarından istifadəsini məhdudlaşdırmışdır və ya əmanətlər üzrə ödənişlər gecikdirilmişdir.

Banklara yerləşdirilən məbləğlər və ya korporativ müştərilərə verilən kreditlərin kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artdığı qənaətinə gəlmək üçün keyfiyyət amillərinə də əsaslanmaq olar. Bu keyfiyyət amillərinin Cəmiyyətin mütəmadi aparılan kəmiyyət təhlillərində tam əksini tapmayan kredit riskinin idarə edilməsi prosesləri ilə bağlılığı olur. Bu nəzarət siyahısına düşmüş yerləşdirmələr kimi yüksək risk meyarlarına cavab verən məbləğlərə aiddir. Belə keyfiyyət meyarları mütəxəssis mühakiməsinə və müvafiq tarixi təcrübəyə əsaslanır.

Gecikmə günləri tam ödənişin edilmədiyi ilk gündən başlayaraq hesablanır. Gecikmə günləri borcalan üçün tanınan hər hansı möhləti nəzərə almadan hesablanır.

İlkin tanınmadan sonra kredit riskində əhəmiyyətli artımın olmadığına dair sübut olarsa, alət üzrə zərər ehtiyatı yenidən 12 aylıq ehtimal olunan kredit zərəri kimi hesablanır.

***Defolt ehtimalının müddət strukturunun yaradılması***

Cəmiyyətin kreditləri üçün defolt ehtimalı (DE,%) Markov zənciri üsulu ilə, yəni təhlil edilən dövr ərzində gecikdirilmiş müddət intervalları boyu kreditin stoxastik keçid matrislərinə əsasən hesablanır.

Cəmiyyət xidmət növləri üzrə kredit riski haqqında ödəmə və defolt məlumatı toplayır. Defolt ehtimalını hesablamaq üçün Cəmiyyət tarixi məlumatdan istifadə edir.

Defolt ehtimalını hesablamaq üçün təhlil edilən dövrün əvvəlində (rezerv dərəcələrinin hesablandığı tarixdən əvvəlki il) mövcud olan bütün kreditlər gecikmə intervallarına əsasən sıralanır:

- "gecikməmiş",
- "1-30 gün gecikmiş";
- "31-60 gün gecikmiş";
- "61-90 gün gecikmiş";
- "defolt".

Risk qrupları arasında orta miqrasiya matrisi kollektiv əsasla tarixi miqrasiya məlumatına əsasən müəyyən edilir.

9 saylı MHBS-nin tələb etdiyi kimi Cəmiyyət ehtimal olunan kredit zərərlərini hesablayarkən proqnoz məlumatından istifadə edir. Defolt ehtimalı parametri makroiqtisadi amillərdə gələcək dəyişiklikləri nəzərə almaqla uçota alınır.

***Modifikasiya edilmiş maliyyə aktivləri***

Kredit müqaviləsinin şərtləri bazar şəraitinin dəyişməsi, müştərilərin saxlanılması və müştərinin kredit qabiliyyətliliyinin cari və ya mümkün pisləşməsi ilə bağlı olmayan digər amillər daxil olmaqla, bir sıra səbəblərdən dəyişdirilə bilər. 3 saylı Qeyddə təsvir edilən uçot siyasətinə əsasən şərtləri dəyişdirilmiş mövcud kreditin tanınması dayandırıla və şərtləri yenidən razılaşdırılaraq ədalətli dəyərdə yenidən tanına bilər.

Maliyyə aktivinin şərtləri modifikasiya edildikdə və modifikasiya tanınmanın dayandırılması ilə nəticələnmədikdə aktivin kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığı aşağıdakıların müqayisəsini əks etdirir:

- modifikasiya şərtlərinə əsasən hesabat tarixində aktivin qalan bütün dövr üçün defolt ehtimalı;
- ilkin tanınma zamanı olan məlumat və ilkin müqavilə şərtlərinə əsasən aktivin qalan bütün dövr üçün defolt ehtimalı.

Modifikasiya tanınmanın dayandırılması ilə nəticələndikdə yeni kredit tanınır və 1-ci Mərhələyə təsnif edilir (həmin zaman kredit üzrə dəyərsizləşmədiyi ehtimal edilir).

Cəmiyyət borcların qaytarılması fürsətlərini maksimum artırmaq və defolt riskini minimuma endirmək üçün müştərilərə verilmiş kreditlərin şərtlərini maliyyə çətinlikləri kimi yenidən razılaşdırır (praktikada "kredit şərtlərinin nəzərdən keçirilməsi" adlandırılır). Cəmiyyətin kredit şərtlərinin nəzərdən keçirilməsi siyasətinə əsasən, kredit şərtləri hər bir müştəri üçün fərdi qaydada o halda nəzərdən keçirilir ki, borcalan öz borcu üzrə hal-hazırda defoltdadır və ya defolt riski yüksəkdir, borcalanın öz borcunu ilkin müqavilə şərtləri əsasında ödəməsi üçün bütün məqsədəuyğun səylərindən istifadə etməsi barədə sübutlar mövcuddur və borcalanın nəzərdən keçirilmiş şərtlərə əməl edə biləcəyi gözlənilir.

Yeni şərtlərə adətən ödəniş müddətinin uzadılması, faiz ödənişlərinin zamanlamasının və kredit şərtlərinin dəyişdirilməsi daxildir. Həm pərakəndə, həm də korporativ kreditlərinin şərtləri nəzərdən keçirilə bilər.

Cəmiyyətin kredit şərtlərini yenidən nəzərdən keçirmək siyasətinin bir hissəsi kimi dəyişikliyə uğramış maliyyə aktivləri üçün, defolt ehtimalı proqnozu dəyişikliyin Cəmiyyətin faiz və əsas məbləği toplamaq qabiliyyətini artırıb-artırmadığını və ya bərpa etdiyini və Cəmiyyətin kredit şərtlərini nəzərdən keçirmək sahəsində keçmiş təcrübəsini əks etdirir. Bu prosesin bir hissəsi kimi Cəmiyyət borcalanın ödəniş fəaliyyətini dəyişdirilmiş müqavilə şərtləri ilə münasibətdə qiymətləndirir və müxtəlif davranış göstəricilərini nəzərə alır.

Bir qayda olaraq, kredit şərtlərinin yenidən nəzərdən keçirilməsi kredit riskində əhəmiyyətli artımın keyfiyyət göstəricisidir və kredit şərtlərinin yenidən nəzərdən keçirilməsinə dair gözləntilər riskə məruz qalan məbləğin kredit üzrə dəyərsizləşməsinə dair sübut təşkil edə bilər (bax: 3 saylı Qeyd). Riskə məruz qalan məbləğin kredit üzrə dəyərsizləşmiş/defoltda hesab edilməməsi üçün müştəri müəyyən müddət ərzində davamlı olaraq ödənişləri vaxtında etməli və ya defolt ehtimalı o qədər azalmalıdır ki, zərər üzrə ehtiyat yenidən 12 aylıq ehtimal olunan kredit zərəri məbləğində hesablansın.

***EOKZ-nin ölçülməsi***

EOKZ-nin ölçülməsində əsas faktorlar aşağıdakı dəyişənlərin strukturudur:

- Defolt Ehtimalı (DE);
- Defolt Zamanı Yaranan Zərər (DZYZ);
- Defolt Vasitəsilə Riskə Məruz Qalma (DVRMQ).

1-ci Mərhələdə riskə məruz qalan məbləğ üzrə ehtimal olunan kredit zərərləri 12 aylıq DE-ni DZYZ və DVRMQ-yə vurmaqla hesablanır. Ömürlük EOKZ ömürlük DE-ni DZYZ və DVRMQ-yə vurmaqla hesablanır.

Defolt ehtimalını hesablama metodologiyası "Defolt ehtimalının müddət strukturunun yaradılması" başlığı altında müzakirə edilmişdir.

Cəmiyyət DZYZ parametrlərini defoltlu tərəf müqabillərinə qarşı iddialar üzrə bərpa tarixinə əsasən hesablayır. DZYZ modellərində iddianın strukturu, iddia üzrə təminat və maliyyə aktivinin ayrılmaz tərkib hissəsi olan istənilən təminatın bərpa xərcləri nəzərə alınır. Pərakəndə əmlakla təmin edilmiş kreditlər üçün KMN əmsalı DZYZ-nin müəyyən edilməsi üçün başlıca parametrdir. DZYZ hesablamaları əmlak qiymətlərində mümkün dəyişiklikləri əks etdirməsi üçün təkrar kalibrasiya edilir. DZYZ qiymətləri diskont amili kimi effektiv faiz dərəcəsindən istifadə etməklə diskontlaşdırılmış pul vəsaitləri əsasında hesablanır.

DVRMQ defolt zamanı riskli mövqenin ehtimal olunan məbləğini əks etdirir. Cəmiyyət DVRMQ-ni cari risk məbləği və müqaviləyə əsasən ayrılan və amortizasiyadan yaranan cari məbləğdə mümkün dəyişikliklərə əsasən hesablayır. Maliyyə aktivinin DVRMQ-si onun defolt anındakı ümumi qalıq dəyəridir.

Yuxarıda qeyd edildiyi kimi və 1-ci Mərhələ maliyyə aktivləri üzrə maksimum 12 aylıq defolt ehtimalından istifadə etmək şərtilə, Cəmiyyət ehtimal olunan kredit zərərini kredit riskinə məruz qaldığı maksimal müqavilə müddəti ərzində (borcalanın müddəti uzatmaq variantları daxil olmaqla) defolt riskini nəzərə almaqla ölçür (hətta Cəmiyyət kredit risklərini idarə etmək məqsədi ilə daha uzun müddəti nəzərdə tutduqda belə).

**Bazar riski**

Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitlərinin hərəkətlərinin bazar qiymətlərində baş verən dəyişikliklər səbəbindən tərəddüd edəcəyi riskdir. Bazar riski valyuta riskindən, faiz dərəcəsi riskindən və digər qiymət risklərindən ibarətdir. Bazar riski bazar şəraitlərində ümumi və spesifik xarakterli dəyişikliklərin və bazar qiymətlərinin dəyişkənlik səviyyəsində dəyişikliklərin təsirinə məruz qalan faiz dərəcələrində, valyutada və qiymətli kağızlarda açıq mövqelərlə əlaqədar yaranır.

**Faiz dərəcəsi riski**

Faiz dərəcəsi riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitlərinin hərəkətinin bazar faiz dərəcələrində dəyişikliklər nəticəsində dəyişəcəyi riskidir. Cəmiyyətin maliyyə vəziyyəti və pul vəsaitləri bazar faiz dərəcələrinin səviyyələrində dəyişikliklərin təsirinə məruz qalır.

Faiz marjaları bu cür dəyişikliklərin nəticəsində yüksələ bilər, lakin eyni zamanda, gözlənilməyən dəyişikliklər baş verdikdə azala, yaxud zərərlərə gətirib çıxara bilər.

Faiz dərəcəsi riski, əsasən, faiz dərəcələri arasında fərqlərə nəzarət etməklə tənzimlənir. Aşağıdakı cədvəldə əsas maliyyə alətləri üzrə faiz dərəcələri arasında fərqlər təqdim olunur:

| | **1 aydan az** | **1-3 ay** | **3-12 ay** | **1-5 il** | **Faizsiz** | **Balans dəyəri** |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2024-cü il** | | | | | | |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | 60,316 | 60,316 |
| Müştərilərə verilmiş kreditlər | 529,915 | 408,026 | 1,357,004 | 1,376,283 | - | 3,671,228 |
| Digər aktivlər | - | - | - | - | 15,750 | 15,750 |
| **Cəmi maliyyə aktivləri** | **529,915** | **408,026** | **1,357,004** | **1,376,283** | **76,066** | **3,747,294** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Borc alınmış vəsaitlər | 107,758 | 362,963 | 586,178 | 290,357 | - | 1,347,256 |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | 2,017 | - | 75,000 | - | - | 77,017 |
| Digər öhdəliklər | - | - | - | - | 28,332 | 28,332 |
| **Cəmi maliyyə öhdəlikləri** | **109,775** | **362,963** | **661,178** | **290,357** | **28,332** | **1,452,605** |
| **Xalis likvidlik boşluğu** | **420,140** | **45,063** | **695,826** | **1,085,926** | **47,734** | **2,294,689** |

| | **1 aydan az** | **1-3 ay** | **3-12 ay** | **1-5 il** | **Faizsiz** | **Balans dəyəri** |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2023-cü il** | | | | | | |
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | 332,858 | 332,858 |
| Müştərilərə verilmiş kreditlər | 335,177 | 343,135 | 1,157,666 | 1,010,997 | - | 2,846,975 |
| Digər aktivlər | - | - | - | - | 8,209 | 8,209 |
| **Cəmi maliyyə aktivləri** | **335,177** | **343,135** | **1,157,666** | **1,010,997** | **341,067** | **3,188,042** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Borc alınmış vəsaitlər | 514,383 | 9,496 | 98,487 | 363,822 | - | 986,188 |
| İcarə öhdəliyi | 1,008 | 3,016 | - | - | - | 4,024 |
| Digər öhdəliklər | - | - | - | - | 23,102 | 23,102 |
| **Cəmi maliyyə öhdəlikləri** | **515,391** | **12,512** | **98,487** | **363,822** | **23,102** | **1,013,314** |
| **Xalis likvidlik boşluğu** | **(180,214)** | **330,623** | **1,059,179** | **647,175** | **317,965** | **2,174,728** |

## Orta effektiv faiz dərəcələri

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə faiz yaradan aktivlər və öhdəliklər üzrə orta effektiv faiz dərəcələri təqdim olunur. Bu faiz dərəcələri gəlirlilik səviyyələrinin həmin aktivlərin və öhdəliklərin ödəniş müddətinə nisbətən təxminidir.

| | 2024-cü il Orta effektiv faiz dərəcəsi, % AZN | 2023-cü il Orta effektiv faiz dərəcəsi, % AZN |
|---|---|---|
| **Faiz yaradan aktivlər** | | |
| Müştərilərə verilmiş kreditlər | 15% | 15% |
| **Faiz yaradan öhdəliklər** | | |
| Borc alınmış vəsaitlər | 3% | 12% |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | 12% | - |
| İcarə öhdəliyi | - | 12% |

**Faiz dərəcəsi riski**

Aşağıdakı cədvəldə "risk dəyişənindəki əsaslı mümkün dəyişikliklər" əsasında müəyyən edilmiş faiz dərəcəsi riskinin həssaslıq təhlili təqdim olunur. Bu dəyişikliklərin səviyyəsi rəhbərlik tərəfindən müəyyən edilir və əsas rəhbər işçilərə təqdim edilən risk hesabatlarında əks olunur.

| | 31 dekabr 2024-cü il tarixinə | |
|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% |
| **Maliyyə aktivləri:** | | |
| Müştərilərə verilmiş kreditlər | 36,712 | (36,712) |
| **Maliyyə öhdəlikləri:** | | |
| Borc alınmış vəsaitlər | (13,473) | 13,473 |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | (770) | 770 |
| **Mənfəət vergisindən əvvəl gəlir/(zərər) üzrə xalis təsir** | **22,469** | **(22,469)** |

| | 31 dekabr 2023-cü il tarixinə | |
|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% |
| **Maliyyə aktivləri:** | | |
| Müştərilərə verilmiş kreditlər | 28,470 | (28,470) |
| **Maliyyə öhdəlikləri:** | | |
| Borc alınmış vəsaitlər | (9,862) | 9,862 |
| İcarə öhdəliyi | (40) | 40 |
| **Mənfəət vergisindən əvvəl gəlir/(zərər) üzrə xalis təsir** | **18,568** | **(18,568)** |

**Valyuta riski**

Valyuta riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitlərinin hərəkətinin xarici valyutaların məzənnələrindəki dəyişikliklərin nəticəsində tərəddüd etməsi riskidir. Maliyyə aktivləri və öhdəliklərinin valyutaları fərdi açıqlama qeydlərində əks olunur.

## Kredit riski

Kredit riski müştəri və ya maliyyə aləti üzrə tərəf müqabili müqavilə üzrə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə, Cəmiyyətin maliyyə zərərinə məruz qalacağı riskdir. Cəmiyyətin kredit risklərinin tənzimlənməsi üçün siyasət və prosedurları vardır (həm uçota alınmış maliyyə aktivləri, həm də uçota alınmamış müqavilə öhdəlikləri üçün); o cümlədən, portfel cəmləşmələrinin məhdudlaşdırılması üzrə qaydalar və kredit riskinə fəal surətdə nəzarət edən Kredit Komitəsinin yaradılması barədə qaydalar daxildir. Kredit siyasəti Müşahidə Şurası tərəfindən nəzərdən keçirilir və təsdiqlənir.

Kredit siyasətində aşağıdakılar əks olunur:

- kredit ərizələrinin baxılması və təsdiqlənməsi prosedurları;
- borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi metodologiyası;
- kontragent, emitent və sığorta şirkətlərinin kredit qabiliyyətinin qiymətləndirilməsi metodologiyası;
- kreditlərin sənədləşməsinə (rəsmiləşdirilməsinə) dair tələblər;
- kreditlərin və digər kredit risklərinin mütəmadi monitorinqi üzrə prosedurlar.

Cəmiyyət davamlı olaraq fərdi kredit risklərinin fəaliyyətinə nəzarət edir və müntəzəm olaraq müştərilərin ödəmə qabiliyyətini yenidən müəyyənləşdirir. Yenidən baxış borcalan tərəfindən təqdim edilmiş və ya Cəmiyyət tərəfindən əldə edilmiş müştərinin ən son maliyyə hesabatları və digər məlumatlara əsaslanır.

Kredit riskinin maksimal dərəcəsi, bir qayda olaraq, maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin qalıq dəyərində və uçota alınmamış müqavilə öhdəliklərinin məbləğlərində əks olunur. Potensial kredit riskinin azaldılması məqsədilə aktivlərin və öhdəliklərin mümkün qarşılıqlı əvəzləşdirilməsi effekti əhəmiyyətli xarakter daşımır.

Aşağıdakı cədvəldə hesabat tarixinə maliyyə aktivləri ilə bağlı maksimal kredit riski təqdim olunur:

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 60,316 | 332,858 |
| Müştərilərə verilmiş kreditlər | 3,671,228 | 2,846,975 |
| Digər aktivlər | 15,750 | 8,209 |
| **Cəmi riskə məruz qalan məbləğ** | **3,747,294** | **3,188,042** |

Müştərilərə verilmiş kreditlərlə bağlı kredit riskinin təhlili 8 saylı Qeyddə açıqlanmışdır.

**Likvidlik riski**

Likvidlik riski Cəmiyyətin hesablaşması nağd pul və ya digər maliyyə aktivləri ilə aparılan maliyyə öhdəlikləri ilə bağlı öhdəliklərinin yerinə yetirilməsində çətinliklərlə üzləşməsi riskidir. Likvidlik riski aktivlərlə öhdəliklərin ödəniş müddətləri arasında uyğunsuzluq olduqda yaranır. Aktivlərin və öhdəliklərin ödəniş müddətlərinin və faiz dərəcələrinin uyğunlaşdırılması, yaxud tənzimlənən uyğunsuzluğu likvidliyin idarə edilməsində əsas rol oynayır. Tam uyğunluğun təmin edilməsi maliyyə təşkilatları üçün qeyri-adidir, çünki onların məşğul olduqları əməliyyatlar, adətən, qeyri-müəyyən müddətlərlə və növlərin müxtəlifliyi ilə səciyyələnir. Ödəniş müddətləri arasında fərq (uyğunsuzluq) olduqda, mənfəətlilik səviyyəsi arta bilər, lakin eyni zamanda itkilərin yaranması riski də artır.

Cəmiyyət pul vəsaitlərinin hərəkəti ilə bağlı bütün öhdəliklərin vaxtlı-vaxtında yerinə yetirilməsi üçün zəruri həcmdə vəsaitlərin mövcudluğunu təmin etmək məqsədilə likvidliyini idarə edir və tənzimləyir. Likvidlik siyasəti Müşahidə Şurası tərəfindən nəzərdən keçirilir və təsdiqlənir.

Cəmiyyət diversifikasiyalı və sabit maliyyələşdirmə bazasını fəal surətdə dəstəkləməyə çalışır.

Likvidliyin idarə edilməsi siyasəti aşağıdakılardan ibarətdir:

- pul vəsaitlərinin hərəkətinin proqnozlaşdırılması və onlarla əlaqədar tələb olunacaq likvid aktivlərin səviyyəsinin nəzərə alınması;
- maliyyələşdirmə mənbələrinin müxtəlifliyinin təmin edilməsi;
- borcların cəmləşməsinin və profillərinin (parametrlərinin) tənzimlənməsi;
- borcların maliyyələşdirilməsi planlarının tərtib edilməsi;
- pul vəsaitlərinin hərəkətinin kəsilməsinə qarşı bir tədbir kimi yüksək likvidli, asanlıqla satıla bilən aktivlər portfelinin təmin edilməsi;
- fövqəladə hallarda likvidliyin və maliyyələşdirmənin təmin edilməsi üçün planların hazırlanması;
- likvidlik əmsallarının normativ tələblərə uyğun olub-olmadığının izlənməsi.

Maliyyə Departamenti Cəmiyyətin biznes bölmələrindən onların maliyyə aktivlərinin və öhdəliklərinin likvidlik göstəriciləri haqqında və proqnozlaşdırılan gələcək əməliyyatlarla və fəaliyyət növləri ilə bağlı digər proqnozlaşdırılan pul vəsaitlərinin hərəkəti haqqında təfərrüatlı məlumatlar alır. Daha sonra Maliyyə Departamenti bütövlüklə Cəmiyyət üçün yetərli likvidliyi təmin etmək üçün tələb olunan qısamüddətli likvid aktivlərin adekvat portfelini təmin edir.

Maliyyə Departamenti gündəlik likvidlik mövqeyinin monitorinqini və həm normal, həm ən çətin bazar şəraitlərini əks edən müxtəlif ssenarilərlə mütəmadi likvidlik stress-testlərini aparır. Normal bazar şəraitində likvidlik mövqeyini əks edən likvidlik haqqında hesabatlar rəhbərliyə hər həftə təqdim olunur. Likvidliyin tənzimlənməsi ilə bağlı qərarlar Maliyyə Departamenti tərəfindən qəbul edilir və Maliyyə Departamenti tərəfindən icra olunur.

31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda tanınmış məbləğlərin ödəmə müddətlərinə görə təhlili aşağıdakı kimidir:

| | Tələb olunanadək və bir aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | Vaxtı keçmiş (müddəti bitmiş) | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Qeyri-derivativ aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 60,316 | - | - | - | - | 60,316 |
| Müştərilərə verilmiş kreditlər | 219,943 | 408,026 | 1,357,004 | 1,345,245 | 341,010 | 3,671,228 |
| Digər aktivlər | 15,750 | - | - | - | - | 15,750 |
| **Cəmi aktivlər** | **296,009** | **408,026** | **1,357,004** | **1,345,245** | **341,010** | **3,747,294** |
| **Qeyri-derivativ öhdəliklər** | | | | | | |
| Borc alınmış vəsaitlər | 107,758 | 362,963 | 586,178 | 290,357 | - | 1,347,256 |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | 2,017 | - | 75,000 | - | - | 77,017 |
| Digər öhdəliklər | 28,332 | - | - | - | - | 28,332 |
| **Cəmi maliyyə öhdəlikləri** | **138,107** | **362,963** | **661,178** | **290,357** | **-** | **1,452,605** |
| **Xalis mövqe** | **157,902** | **45,063** | **695,826** | **1,054,888** | **341,010** | **2,294,689** |
| **Məcmu xalis mövqe** | **157,902** | **202,965** | **898,791** | **1,953,679** | **2,294,689** | **-** |

31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda tanınmış məbləğlərin ödəmə müddətlərinə görə təhlili aşağıdakı kimidir:

| | Tələb olunanadək və bir aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | Vaxtı keçmiş (müddəti bitmiş) | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Qeyri-derivativ aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 332,858 | - | - | - | - | 332,858 |
| Müştərilərə verilmiş kreditlər | 264,099 | 343,135 | 1,157,666 | 1,010,997 | 71,078 | 2,846,975 |
| Digər aktivlər | 8,209 | - | - | - | - | 8,209 |
| **Cəmi aktivlər** | **605,166** | **343,135** | **1,157,666** | **1,010,997** | **71,078** | **3,188,042** |
| **Qeyri-derivativ öhdəliklər** | | | | | | |
| Borc alınmış vəsaitlər | 514,383 | 9,496 | 98,487 | 363,822 | - | 986,188 |
| İcarə öhdəliyi | 1,008 | 3,016 | - | - | - | 4,024 |
| Digər öhdəliklər | 23,102 | - | - | - | - | 23,102 |
| **Cəmi maliyyə öhdəlikləri** | **538,493** | **12,512** | **98,487** | **363,822** | **-** | **1,013,314** |
| **Xalis mövqe** | **66,673** | **330,623** | **1,059,179** | **647,175** | **71,078** | **2,174,728** |
| **Məcmu xalis mövqe** | **66,673** | **397,296** | **1,456,475** | **2,103,650** | **2,174,728** | |

31 dekabr 2024-cü il tarixinə maliyyə aktivləri və öhdəlikləri üzrə diskontlaşdırımamış ödəmə müddətinin təhlili aşağıdakı kimidir:

| | Tələb olunanadək və bir aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | Vaxtı keçmiş (müddəti bitmiş) | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Qeyri-derivativ öhdəliklər** | | | | | | |
| Borc alınmış vəsaitlər | 109,185 | 366,585 | 596,206 | 313,816 | 1,385,792 | 1,347,256 |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | 2,017 | 1,529 | 80,499 | - | 84,045 | 77,017 |
| Digər öhdəliklər | 28,332 | - | - | - | 28,332 | 28,332 |
| **Cəmi qeyri-derivativ maliyyə öhdəlikləri** | **139,534** | **368,114** | **676,705** | **313,816** | **1,498,169** | **1,452,605** |

31 dekabr 2023-cü il tarixinə maliyyə aktivləri və öhdəlikləri üzrə diskontlaşdırılmamış ödəmə müddətinin təhlili aşağıdakı kimidir:

| | Tələb olunanadək və bir aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | Vaxtı keçmiş (müddəti bitmiş) | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Qeyri-derivativ öhdəliklər** | | | | | | |
| Borc alınmış vəsaitlər | 521,174 | 9,695 | 100,553 | 375,434 | 1,006,856 | 986,188 |
| İcarə öhdəliyi | 1,043 | 3,096 | - | - | 4,139 | 4,024 |
| Digər öhdəliklər | 23,102 | - | - | - | 23,102 | 23,102 |
| **Cəmi qeyri-derivativ maliyyə öhdəlikləri** | **545,319** | **12,791** | **100,553** | **375,434** | **1,034,097** | **1,013,314** |

## 21 ŞƏRTİ ÖHDƏLİKLƏR

### Məhkəmə iddiaları

Cəmiyyət fəaliyyəti ilə əlaqədar olaraq məhkəmə iddialarına və şikayətlərə məruz qalır. Rəhbərlik bu kimi iddia və şikayətlər nəticəsində yaranan maddi məsuliyyətin Cəmiyyətin maliyyə vəziyyətinə və ya gələcək əməliyyatların nəticələrinə ciddi mənfi təsir göstərməyəcəyini hesab edir.

### Vergi öhdəlikləri

Azərbaycan Respublikasının vergiqoyma sistemi inkişaf etməkdə olduğuna görə bir çox hallarda aydın olmayan, ziddiyyətli və müxtəlif vergi orqanları tərəfindən fərqli qaydada təfsir edilən qanunvericilikdə tez-tez dəyişikliklərlə, rəsmi göstərişlərlə və məhkəmə qərarları ilə səciyyələnir. Vergilər sərt cərimələr və faiz yükləmələri tətbiq edən orqanlar tərəfindən yoxlanılır və araşdırılır.

Bir vergi ili, ümumən, üç növbəti təqvim ili müddətində vergi orqanları tərəfindən nəzarət üçün açıq qalır, lakin müəyyən hallarda bir vergi ili daha uzun müddətə açıq qala bilər.

Bu hallar Azərbaycanda digər ölkələrlə müqayisədə daha əhəmiyyətli olan vergi riskləri yarada bilər. Rəhbərlik bir sıra amillərin qiymətləndirilməsinə, o cümlədən vergi qanunvericiliyinin təfsirinə və əvvəlki təcrübəsinə əsaslanaraq vergi öhdəlikləri üçün hesablaşmaların bütün açıq vergi illərinə görə adekvat olduğunu düşünür.

Bununla belə, müvafiq orqanların şərhləri fərqli ola bilər və səlahiyyətli orqanlar öz şərhlərini həyata keçirməkdə müvəffəqiyyətli olarsa, bu maliyyə hesabatlarına təsiri əhəmiyyətli ola bilər.

## 22 ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

### Əsas rəhbərlik heyətinin məvacibi

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə işçi heyəti ilə bağlı xərclərə daxil olan cəmi məvacib haqqında məlumat təqdim olunur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Əməkhaqqı xərcləri və əlaqədar işçi mükafatları | 42,555 | 34,516 |
| **Cəmi** | **42,555** | **34,516** |

### Digər əlaqəli tərəflərlə əməliyyatlar

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə əsas rəhbərlik heyəti, ana şirkət və eyni ana şirkətin nəzarəti altında olan müəssisələrlə əməliyyatlar üzrə qalıqlar və orta effektiv faiz dərəcələri təqdim olunmuşdur:

| Maliyyə vəziyyəti haqqında hesabat | Əsas rəhbərlik heyəti | Orta effektiv faiz dərəcəsi, % | Ümumi nəzarət altında olan müəssisələr | Orta effektiv faiz dərəcəsi, % | Ana şirkət | Orta effektiv faiz dərəcəsi, % |
|---|---|---|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 5,090 | 15% | - | - | - | - |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | - | - | - | - | 77,017 | 12% |

Aşağıdakı cədvəldə 31 dekabr 2023-cü il tarixinə əsas rəhbərlik heyəti, ana şirkət və eyni ana şirkətin nəzarəti altında olan müəssisələrlə əməliyyatlar üzrə qalıqlar və orta effektiv faiz dərəcələri təqdim olunmuşdur:

| Maliyyə vəziyyəti haqqında hesabat | Əsas rəhbərlik heyəti | Orta effektiv faiz dərəcəsi, % | Ümumi nəzarət altında olan müəssisələr | Orta effektiv faiz dərəcəsi, % | Ana şirkət | Orta effektiv faiz dərəcəsi, % |
|---|---|---|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 37,319 | 16% | - | - | - | - |

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə əsas idarə heyəti, ana şirkət və eyni əsas müəssisənin ümumi nəzarəti altında olan müəssisələrlə əməliyyatlar üzrə mənfəət və ya zərərə daxil edilmiş vəsaitlər aşağıdakı kimidir:

| Mənfəət və ya zərər haqqında hesabat | Əsas idarə heyəti | Ümumi nəzarət altında olan müəssisələr | Ana şirkət |
|---|---|---|---|
| Faiz gəliri | 976 | - | - |
| Faiz xərci | - | - | 2,017 |

31dekabr 2023-cü il tarixində başa çatmış il üzrə əsas idarə heyəti, ana şirkət və eyni əsas müəssisənin ümumi nəzarəti altında olan müəssisələrlə əməliyyatlar üzrə mənfəət və ya zərərə daxil edilmiş vəsaitlər aşağıdakı kimidir:

| Mənfəət və ya zərər haqqında hesabat | Əsas idarə heyəti | Ümumi nəzarət altında olan müəssisələr | Ana şirkət |
|---|---|---|---|
| Faiz gəliri | 2,189 | - | - |
| Digər gəlir | - | - | 3,035 |

## 23 MALİYYƏ AKTİVLƏRİ VƏ ÖHDƏLİKLƏRİ: ƏDALƏTLİ DƏYƏR VƏ UÇOT TƏSNİFATLARI

### Uçot təsnifatları və ədalətli dəyər

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə maliyyə aktivləri və maliyyə öhdəliklərinin balans dəyərləri və ədalətli dəyərləri təqdim olunmuşdur:

| | Amortizasiya edilmiş dəyər | Cəmi balans dəyəri | Ədalətli dəyər |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 60,316 | 60,316 | 60,316 |
| Müştərilərə verilmiş kreditlər | 3,671,228 | 3,671,228 | 3,609,489 |
| Digər aktivlər | 15,750 | 15,750 | 15,750 |
| **Cəmi maliyyə aktivləri** | **3,747,294** | **3,747,294** | **3,685,555** |
| Borc alınmış vəsaitlər | 1,347,256 | 1,347,256 | 1,347,256 |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | 77,017 | 77,017 | 77,017 |
| Digər öhdəliklər | 28,332 | 28,332 | 28,332 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,452,605** | **1,452,605** | **1,452,605** |

Aşağıdakı cədvəldə 31 dekabr 2023-cü il tarixinə maliyyə aktivləri və maliyyə öhdəliklərinin balans dəyərləri və ədalətli dəyərləri təqdim olunmuşdur:

| | Amortizasiya edilmiş dəyər | Cəmi balans dəyəri | Ədalətli dəyər |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 332,858 | 332,858 | 332,858 |
| Müştərilərə verilmiş kreditlər | 2,846,975 | 2,846,975 | 2,681,104 |
| Digər aktivlər | 8,209 | 8,209 | 8,209 |
| **Cəmi maliyyə aktivləri** | **3,188,042** | **3,188,042** | **3,022,171** |
| Borc alınmış vəsaitlər | 986,188 | 986,188 | 986,188 |
| Digər öhdəliklər | 23,102 | 23,102 | 23,102 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,013,314** | **1,013,314** | **1,013,314** |

Ədalətli dəyərin hesablamaları hesablama tarixinə maliyyə alətinin müstəqil kommersiya əməliyyatında tərəflər qismində çıxış edən məlumatlı şəxslər arasında mübadilə oluna bildiyi məbləğini təxmin etmək məqsədinə xidmət edir. Lakin qeyri-müəyyənlikləri və mühakimənin subyektivliyini nəzərə alaraq, ədalətli dəyər aktivlərin satışı və ya öhdəliklər üzrə hesablaşmanın aparılması çərçivəsində reallaşdırıla bilən dəyər kimi qəbul edilməməlidir.

Fəal bazarlarda dövriyyədə olan maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyərləri kotirovka olunmuş bazar qiymətlərinə və ya dilerin qiymət təkliflərinə əsaslanır. Cəmiyyət bütün digər maliyyə alətlərinin ədalətli dəyərlərini digər qiymətləndirmə üsulları vasitəsilə müəyyən edir.

Qiymətləndirmə üsullarının məqsədi ölçmə tarixinə bazar iştirakçıları arasında adi əməliyyat zamanı aktivi satmaq üçün alınan və ya öhdəliyi ötürmək üçün ödənilən qiyməti əks etdirən ədalətli dəyərin müəyyənləşdirilməsidir.

**Ədalətli dəyər iyerarxiyası**

Cəmiyyət ədalətli dəyərləri ölçərkən ilkin göstəricilərin əhəmiyyətliliyini əks etdirən aşağıdakı ədalətli dəyər iyerarxiyasından istifadə edir:

- 1-ci Səviyyə: Fəal bazarda eyni bir alət üçün aktiv bazar qiymətləri (nizamlanmamış).
- 2-ci Səviyyə: birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən, 1-ci Səviyyəyə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər ilkin göstəricilər. Bu kateqoriyaya aşağıdakı amillərdən istifadə etməklə qiymətləndirilən alətlər daxildir: analoji alətlər üçün fəal bazarda tətbiq edilən bazar qiymətləri; analoji alətlər üzrə kifayət qədər fəal hesab olunmayan bazarlarda tətbiq edilən qiymətlər; və ya bütün əhəmiyyətli ilkin göstəricilərin birbaşa, yaxud dolayısı ilə bazar məlumatlarından müşahidə oluna bildiyi digər qiymətləndirmə üsulları.
- 3-cü Səviyyə: ilkin göstəricilər müşahidə oluna bilmir. Bu kateqoriyaya aid edilən alətlərin qiymətləndirmə metoduna müşahidə edilə bilən məlumata əsaslanmayan ilkin göstəricilər daxildir və müşahidə edilə bilməyən ilkin göstəricilər həmin alətin qiymətləndirilməsində əhəmiyyətli təsirə malikdir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və bu zaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə olunmayan tənzimləmələr və ya mülahizələr tələb olunur.

Aşağıdakı cədvəl 31 dekabr 2024-cü il tarixinə ədalətli dəyərində ölçülməyən maliyyə alətlərini hər bir ədalətli dəyər ölçülməsinin təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir. Məbləğlər maliyyə vəziyyəti haqqında hesabatda tanınan dəyərlərə əsaslanır:

| | 1-ci Səviyyə | 2-ci Səviyyə | 3-cü Səviyyə | Cəmi ədalətli dəyər | Cəmi balans dəyəri |
|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 60,316 | - | - | 60,316 | 60,316 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 3,609,489 | 3,609,489 | 3,671,228 |
| Digər aktivlər | - | - | 15,750 | 15,750 | 15,750 |
| **Cəmi maliyyə aktivləri** | **60,316** | **-** | **3,625,239** | **3,685,555** | **3,747,294** |
| Borc alınmış vəsaitlər | - | - | 1,347,256 | 1,347,256 | 1,347,256 |
| Əlaqəli tərəfə ödəniləcək vəsait | - | - | 77,017 | 77,017 | 77,017 |
| Digər öhdəliklər | - | - | 28,332 | 28,332 | 28,332 |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **-** | **1,452,605** | **1,452,605** | **1,452,605** |

Aşağıdakı cədvəl 31 dekabr 2023-cü il tarixinə ədalətli dəyərində ölçülməyən maliyyə alətlərini hər bir ədalətli dəyər ölçülməsinin təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir. Məbləğlər maliyyə vəziyyəti haqqında hesabatda tanınan dəyərlərə əsaslanır:

| | 1-ci Səviyyə | 2-ci Səviyyə | 3-cü Səviyyə | Cəmi ədalətli dəyər | Cəmi balans dəyəri |
|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 332,858 | - | - | 332,858 | 332,858 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 2,681,104 | 2,681,104 | 2,846,975 |
| Digər aktivlər | - | - | 8,209 | 8,209 | 8,209 |
| **Cəmi maliyyə aktivləri** | **332,858** | **-** | **2,689,313** | **3,022,171** | **3,188,042** |
| Borc alınmış vəsaitlər | - | - | 986,188 | 986,188 | 986,188 |
| Digər öhdəliklər | - | - | 23,102 | 23,102 | 23,102 |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **-** | **1,013,314** | **1,013,314** | **1,013,314** |